**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

12 oktyabr 2024-cü il №37 (9095) www.muallim.edu.az muallim@media.edu.az

## 102 tələbəyə Prezident təqaüdü veriləcək



# Türkiyə Prezidenti Azərbaycan komandasını təbrik etdi

**Elm və Təhsil Nazirliyi və "STEAM Azərbaycan"ın dəstəyi ilə "Teknofest"də iştirak edən Azərbaycan komandası yarışın qalibi olub**

Türkiyənin Adana şəhərində "Teknofest" yarışının mükafatlandırılma mərasimi keçirilib.

Tədbirdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak edib. Bildirilib ki, "Teknofest" yarışı 2018-ci ildən başlayaraq hər il Türkiyənin müxtəlif şəhərlərində keçirilir. Bu il isə ötən illərə nisbətdə 50 kateqoriya üzrə 1,6 milyondan çox iştirakçı qeydiyyatdan keçib.

Sonda qalib komandalara mükafatlar təqdim edilib.

Məlumat üçün bildirək ki, 1-ci yerə layiq görülən Həmid Məmmədli və Toğrul Abbasov Elm və Təhsil Nazirliyi və "STEAM Azərbaycan" layihəsinin dəstəyi ilə yarışda iştirak ediblər.

Qeyd edək ki, "Teknofest" ilk dəfə 2018-ci ildə keçirilib. Türkiyədə milli texnologiya hərəkatı adını alan tədbirin məqsədi hər il texnologiyalar sahəsində yeni nailiyyət və rekordlara imza atmaqdır. "Teknofest" dünyanın ən böyük texnologiya, mülki və hərbi aviasiya festivalıdır.

# TƏHSİLİN İNKİŞAFI FORUMU 2024

## "Tərəfdaşlıqdan Tərəqqiyə"



**Emin ƏMRULLAYEV:**

## Bugünkü proqramlar 20 il əvvəlki ilə müqayisədə daha mütərəqqidir

**"Ali təhsil müəssisələrində tədris proqramını dəyişmək özlüyündə ağrılı problemdir. Dəyişiklik etmək bəzən sürətli şəkildə alınmır. Burada bəzən təhsillə bağlı səbəblər ön planda dayanmır. Biz bir dəyişiklik edərkən sosial tərəfləri də nəzərə almalıyıq. Əvvəlcə problemi tanımalıyıq. Bu yalnızca universitetlərin yükü deyil. Bugünkü proqramlar 20 il əvvəlki ilə müqayisədə daha mütərəqqidir".**

Bax səh. 4

# Yeni dizayn, daha əlçatanlıq

## "Azərbaycan müəllimi" qəzetinin saytı yeniləndi



**"Azərbaycan müəllimi" qəzetinin saytı yeni dizaynı və artırılmış funksionallığı ilə xidmətinizdədir. Oxucularımız indi elm və təhsil sahəsində, həmçinin ictimai-siyasi həyatda baş vermiş yenilikləri daha rahat əldə edə biləcəklər.**

İlk növbədə, qeyd edək ki, əvvəlki versiyadan fərqli olaraq saytın bütün cihazlar üçün həssas görünüş rejimi təmin edilib, yeni funksional alətlər tətbiq olunub.

Yeniliklərdən biri qəzetə elan göndərilməsi prosedurunun sadələşdirilməsidir. Belə ki, artıq ümumi məzmunlu və ya təhsil sənədinin itirilməsi ilə bağlı elanları redaksiyaya yaxınlaşmadan birbaşa sayt üzərindən göndərmək mümkündür.

Bundan başqa yeni versiyada əlavə olaraq "Bloq" bölməsi də yaradılıb. Elm və təhsil sahəsinə dair məqalələrini geniş auditoriyaya çatdırmaq istəyənlər (təhsil işçiləri, müəllimlər, tələbələr, doktorantlar və s.) özləri haqqında məlumat yerləşdirməklə şəxsi kabinetlərini yarada və yazılarını əlavə edə bilərlər.

Saytın daha da təkmilləşdirilməsi istiqamətində işlər davamlı aparılacaq.

Qeyd edək ki, yenilənmiş saytda əvvəlki versiyaya keçid də əlavə olunub.

Rəy və təkliflərinizi bizə yaza bilərsiniz!

# TƏHSİL QARABAĞA QAYIDIR



Bax səh. 6



# Universitetlərimiz dünyanın ən yaxşıları arasında

**Böyük Britaniyanın ali təhsil xidmətləri sahəsində ixtisaslaşmış "Times Higher Education" (THE) təşkilatı dünyanın ən yaxşı ali təhsil müəssisələrinin qlobal reytinqini ("Times Higher Education World University Rankings 2025") açıqlayıb. Londonda keçirilən "Dünya Akademik Sammiti" çərçivəsində təqdim olunan reytinq sıralaması Azərbaycan ali təhsil sistemi üçün növbəti ilklə xarakterikdir. İlk dəfə olaraq Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) dünyanın ən nüfuzlu universitetlərinin siyahısında yer alıb. Beləliklə, sözügedən qlobal reytinqdə Bakı Dövlət Universiteti də daxil olmaqla ümumilikdə, Azərbaycanın 2 ali təhsil müəssisəsi təmsil olunur.**

Ardı səh. 9

**Prezident İlham Əliyev “2024-2025-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında” Sərəncam imzalayıb.**

# Qəbul imtahanlarında ən yüksək nəticələr göstərmiş bir qrup tələbəyə Prezident təqaüdü veriləcək

Sərəncama əsasən, 2024-2025-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü veriləcək:

Abbaslı Səma Hüseyn qızı
Abbasov Orxan Taleh oğlu
Abdullayeva Rəna Natiq qızı
Ağakişiyeva Aysu Asif qızı
Ağazadə Nərmin Teymur qızı
Axundov Nurlan Saleh oğlu
Babaəyli Semral Aprel qızı
Baxşalıyev Azər Natiq oğlu
Bədəlova Aytac Rasim qızı
Bədəlova Nərgiz Cəlal qızı
Dəmirçiyev Ayxan Ramin oğlu
Elyazov Şükür Şakir oğlu
Eyvazlı Əsmər Elmar qızı
Eyvazov Maarif Seymur oğlu
Eyyubov Samur Şirvan oğlu
Əbilov Ziya Namiq oğlu
Əhmədova Nəzrin Ramil qızı
Əliyev Məhəmməd Vüsal oğlu
Əliyev Ömər İlqar oğlu
Əliyev Turan Anar oğlu
Əliyeva Amalya Tural qızı
Əliyeva Aytac Xəqani qızı
Əlizadə Rəbiyyə Həsən qızı
Əlizadə Ülvi Rövşən oğlu
Əmirov Coşqun Rafiq oğlu
Əsədov Rüfət Raqif oğlu
Əsədullayev Amin Arif oğlu
Əsgərzadə Hikmət Ramin oğlu
Garayzadə Kənan Rafiq oğlu
Gülməliyeva Sevil Rövşən qızı
Gülməmmədov Məhəmməd Akifoviç
Hacıbabayeva Gülafət Anar qızı
Hacıyeva Nuray Hafis qızı
Hacıyeva Zeynəb Hünər qızı
Həbibli Ülvi Vahab oğlu
Həmzəli Suat Zahir oğlu
Həsənli Əsmər Səxavət qızı
Həsənov Fizuli Vüqar oğlu
Həsənzadə Səma Ələsgər qızı
Hüseynli Murad Vidadi oğlu
Hüseynov Elcan Rüfət oğlu
Hüseynov Nurlan Fizuli oğlu
Hüseynova Nuray Emin qızı
Hüseynova Pakizə Namil qızı
Hüseynzadə Nəzrin Fuad qızı
Xəlilzadə Amin Yavər oğlu
Xəlilzadə Əkrəm Samir oğlu
İlyasova Zərifə Elmaz qızı
İsaqov Elvin Ceyhun oğlu
İsmayıllı Kənan Mehman oğlu
Kərimli Qəhrəman Elsevər oğlu
Kərimov Fuad Daşqın oğlu
Qaçabəyova Həlimə Yaşar qızı
Qafarlı İlkin Elçin oğlu
Qafarzadə Zəhra Zaur qızı
Qasımova Fatimə Elxan qızı
Qənbərova İnci Rauf qızı
Qurbanova Ləman Sənan qızı
Mahmudzadə Nihad Mahmud oğlu
Məcidov Əşkəbuz Zamin oğlu
Məhərrəmova Nigar Mübariz qızı
Məhərrəmzadə İlahə Rəşad qızı
Məmmədli Ceyhun Azər oğlu
Məmmədli Fatimə Faiq qızı
Məmmədli Məhəmməd Vaqif oğlu
Məmmədli Murad Gəray oğlu
Məmmədli Röya Əlizamin qızı
Məmmədli Saleh Babək oğlu
Məmmədova Lalə Ramiz qızı
Məmmədzadə Mələk Cabir qızı
Məmmədzadə Şərafət Nüsrət qızı
Mərdanlı Xədicə Sərkər qızı
Miriyeva Nəzrin Miriş qızı
Mirzalıyev Fuad Yaşar oğlu
Muradov Cəlal Murad oğlu
Mustafazadə Afiq Arzu oğlu
Namazov Nihad Ruslan oğlu
Nəsirova Zenfira Rəşadət qızı
Novruzova Şəbnəm Ramin qızı
Nuruyev Elgün Akif oğlu
Orucov Fəxri Faiq oğlu
Rəhimova Səidə Ruhib qızı
Rüstəmli Fidan Ayət qızı
Rüstəmova Validə Elçin qızı
Rzayev Yaqub Aqil oğlu
Sadıqova Aytac Elnur qızı
Salmanov Ayxan Sərdar oğlu
Səfərli Ayişə Bəxtiyar qızı
Səfərli Yunis Elxan oğlu
Səfərova Leyla Abuzər qızı
Səlimova Aysel Ehtiram qızı
Səmədli Pərviz Hafiz oğlu
Süleymanov Nəsib Asif oğlu
Şəkərov Zaur Əvəz oğlu
Şirinli Raul Rəşid oğlu
Şirinov Nicat Seymur oğlu
Tahirli Lalə Cahangir qızı
Vəliməmmədov Fərid Musa oğlu
Vəliyeva Şəms Azər qızı
Yusibov Elşən Səfa oğlu
Yusifov Fərid Güloğlan oğlu
Yusifova Səbinə Vüqar qızı.

# PREZİDENT TƏQAÜDÇÜLƏRİ

## Qarabağ Universitetinin ən yüksək ballı tələbəsi: “Peşəkar hüquqşünas olub, vətənimə xidmət etmək istəyirəm”




**Bu il tələbələrin ali təhsil müəssisəsi seçimində böyük maraq göstərdikləri müəssisələrdən biri də yeni yaradılan Qarabağ Universiteti olub. Kifayət qədər yüksək ballı tələbə ilk seçimində məhz Qarabağ Universitetini yazıb və bunun nəticəsində də ali təhsil müəssisəsinin əksər ixtisasları üzrə yüksək qəbul balı formalaşıb. Qarabağ Universitetinin ən yüksək ballı tələbəsi isə Zenfira Nəsirovadır. O, Salyan şəhər 1 saylı məktəb-liseyi bitirib və bu il ali təhsil müəssisələrinə qəbul imtahanında III ixtisas qrupu üzrə 683.8 bal toplayıb.**

Təəssüratlarını “Azərbaycan müəllimi” qəzeti ilə bölüşən Zenfira bildirir ki, Qarabağ Universiteti gələcək üçün parlaq təəssürat bəxş edən ali təhsil müəssisələrindəndir.

“İnanıram ki, təhsil alacağım Qarabağ Universiteti növbəti illərdə təkcə regionun deyil, dünyanın ən yaxşı ali məktəblərindən birinə çevriləcək. 2-3 ay əvvəl bizdə tədbir olmuşdu və bu tədbirdə Qarabağ Universitetinin presprektivlərindən, karyeramızda oynaya biləcəyi roldan danışılmışdı. Bu görüş ali təhsil müəssisəsi seçimimə böyük təsir göstərdi və bundan sonra Qarabağ Universitetində təhsil almaq istədiyimi qətiləşdirdim. Həmçinin burada tədris aparacaq müəllimlərin xüsusən xaricdə təhsil almış şəxslər olması, təqaüd proqramları və güzəştlər də buranı seçməyimin əsas səbəblərindədir. Düşünürəm ki, gələcək karyeram üçün Qarabağ Universiteti yaxşı bir seçimdir”.

Z.Nəsirova “Hüquqşünaslıq” ixtisasına 9-cu sinifdən marağının yarandığını, ailəsinin və müəllimlərinin də seçimini dəstəklədiklərini vurğulayıb: “Bu ixtisasda özümü daha uğurlu görürəm və gələcəkdə yüksək nailiyyət qazanacağıma inanıram. İstəyərdim ki, bu 4 ili ən yüksək nəticələrlə başa vurum və daha sonra İngiltərədə magistratura təhsili alım. Daha sonra dünyanın ən öndə gedən hüquq şirkətlərinin birində təcrübə keçib, peşəkar hüquqşünas olub, vətənimə xidmət etmək istəyirəm”.

**Kubra ŞAHİN**

# Gənclər dövlət başçısının diqqət və qayğısından daha da ruhlanırlar



Nəzrin Əhmədova

### “Təhsilimizə göstərdiyi diqqət və qayğıya görə ölkə başçısına minnətdaram”

Nəzrin Əhmədova Gəncə şəhərində dünyaya göz açıb. 2024-cü ildə V.Veysəlov adına 30 nömrəli tam orta məktəbin məzunu olub. Oxuduğu müddətdə dərslərini yaxşı oxumaqla bərabər, həm də məktəbin ictimai həyatında fəal iştirak edib: “Dərslərimə həmişə hazırlıqlı olurdum, çalışırdım ki, əla qiymət alım. Hətta ibtidai sinif müəllimim Ayişə müəllim məni “Testin anası” adlandırırdı. Sınaq imtahanlarında 1 və 2-ci yerləri tuturdum”.

N.Əhmədova yuxarı siniflərdə oxuyanda texniki fənlərə marağı çox olub. Fənn olimpiadalarında həmişə yoldaşlarından fərqlənib. O, hələ 9-cu sinfin buraxılış imtahanında 286 bal toplayaraq fərqlənmə attestatına layiq görülüb. Nəhayət, 11-ci sinfin buraxılış imtahanında ən yüksək nəticə olan 300 bal, blok imtahanında isə 397 bal toplayıb.

Hələ uşaqlığında Azərbaycanın tanınmış həkimlərindən biri olmağı arzulayıb. Ona görə də həkim olmaq üçün yüksək nəticə ilə Azərbaycan Tibb Universitetinə (ATU) daxil olub. “Bu yolda valideynlərim və müəllimlərim mənə dəstək olublar. Onların mənə ümid bağlaması, inanması daha da həvəslə çalışmağıma stimul verirdi.

Bilirdim ki, yaxşı həkim olmaq üçün çoxlu mütaliə etmək, öz üzərində işləmək lazımdır. Çünki həkimlik sənəti böyük məsuliyyət tələb edir, bu peşə insanın ən qiymətli sərvətlərindən biri - onun sağlamlığı ilə bağlıdır.



Nicat Şirinov

“İlk gündən öz hədəfimə çatmaq üçün səylə çalışıram. Çox sevincliyəm. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən Prezident təqaüdünə layiq görülmüşəm. Bu xəbərdən ailəmiz böyük sevinc içərisindədir. Təhsilimizə göstərdiyi diqqət və qayğıya görə ölkə başçısına minnətdaram”.

### “Arzum vətənimdə tanınmış mütəxəssis olmaqdır”

Nicat Şirinov Xırdalan şəhərində anadan olub. Orta təhsilini Sumqayıt şəhər 39 nömrəli tam orta məktəbdə başa vurub. 9 və 11-ci sinfin buraxılış imtahanlarında yüksək bal topladığına görə fərqlənmə attestatı alıb. Azərbaycan Dövlət İqtisad Universitetinin “İnformasiya təhlükəsizliyi” (ingilis dili) ixtisasına 692.8 balla qəbul olub.

“Prezident təqaüdçüsü olmağımla bağlı ilk məlumatı mənə ailə üzvlərim bildirdi. Bu xəbəri eşidəndə çox sevindim, təəssüratlarımı doğmalarımla bölüşdüm. Prezident təqaüdçüsü olmağı uzun müddətdir istəyirdim və bu arzumu reallaşdırdım. Buna görə də qürurluyam.

Hazırda tədris ilinin üçüncü həftəsidir. Müəllimlərimizin hər biri öz biliklərini, akademik səviyyədə olan məlumatları bizə ən asan üsullarla öyrətməkdə maraqlıdırlar. Biz də öz növbəmizdə çalışırıq ki, gələcəkdə yüksək nəticələr göstərək. İlk gündən müəllimlərimin seminar və mühazirə dərslərində fəal iştirak edirəm. Arzum vətənimdə tanınmış mütəxəssis olmaqdır. Bunun üçün səylə çalışıram”.



Sevil Gülməliyeva

### “Uğur qazanmağımda zəhməti olan müəllimlərimə minnətdaram”

Sevil Gülməliyeva 2024-cü ildə Quba rayonu Aşağı Atuc kənd tam orta məktəbinin 11-ci sinfini xüsusi nümunəli attestat və qızıl nişanla başa vurub. 2023-2024-cü tədris ilində Respublika fənn olimpiadalarında Azərbaycan dili və ədəbiyyat fənni üzrə gümüş medala layiq görülüb. 2024-2025-ci tədris ilində Respublika fənn olimpiadalarında ikinci dəfə Azərbaycan dili və ədəbiyyat fənni üzrə bürünc medal qazanıb. Dövlət İmtahan Mərkəzinin ali təhsil müəssisələrinə qəbul üzrə təşkil etdiyi buraxılış imtahanında maksimum nəticə, 300 bal və blok imtahanında 384.1 bal toplamaqla, ümumilikdə 684.1 balla Bakı Dövlət Universitetinin ingilis bölməsi üzrə hüquq fakültəsinə qəbul olub: “Düşünürəm ki, Prezident təqaüdü tələbələrə daha çox oxumaq, daha yaxşı kadr olmaq üçün stimuldur. Ümid edirəm ki, akademik sahədə əldə etdiyim nailiyyətlər, məni gələcəkdə daha böyük uğurlara doğru aparacaq. Hədəfimdə yalnız şəxsi karyera qurmaq deyil, eyni zamanda ölkəmiz üçün əhəmiyyətli töhfələr vermək dayanır. Bu, sadəcə mənim deyil, həm də bu yolda mənə hər zaman dəstək olan valideynlərimin, müəllimlərimin uğurudur. Çalışacağam ki, bütün təhsil müddəti boyunca Prezident təqaüdünü qoruya bilim. Qəbul imtahanlarına hazırlaşan abituriyentlərə demək istərdim ki, nə olursa olsun, heç vaxt öz xəyallarından, arzularından əl çəkməsinlər, çox çalışsınlar. Uğurun formulu çox sadədir: zəhmət, inam və səbir.

Bu gün uğur qazanmağımda zəhməti olan müəllimlərimə minnətdaram”.




Ayxan Salmanov

### “Ən böyük arzum magistratura təhsilimi MIT-də almaqdır”

Bakı Ali Neft Məktəbinin (BANM) 33 tələbəsi Prezident təqaüdünə layiq görülüb. Onların arasında Ayxan Salmanov ən yüksək balı toplayaraq BANM-in “İnformasiya təhlükəsizliyi” ixtisasına qəbul olunub. Şəki şəhəri Baş Zəyzid kənd tam orta məktəbinin fərqlənmə attestatlı məzunudur:

“Dövlət İmtahan Mərkəzinin keçirdiyi universitetlərə qəbul imtahanında 697.5 bal toplamışam. 1-ci blok imtahanından sonra balımın istədiyim fakültəyə yetməməsi məni narahat etdi və nə edəcəyimi bilmirdim. Amma yaxşı ki, hədəfimə çatdım. BANM-də “İnformasiya təhlükəsizliyi” ixtisasını seçdim. Burada təhsilin yüksək səviyyədə olduğu haqqında məlumatım var idi. Qərarımın doğru olduğunu düşünürdüm. Universitetdə dərsə başladıqdan sonra anladım ki, yanılmamışam. Gələcək üçün də böyük planlarım var. Qarşıdan gələn illərdə Erasmus kimi proqramlarla xaricdə təhsil almaq istəyirəm. Ən böyük arzum magistratura təhsilini ABŞ-nin Massaçusets Texnologiya İnstitutunda (MIT) almaqdır. Beləcə gələcəyimi qurmaq və vətənimə xeyirli bir vətəndaş olmaq istəyirəm. Bu, mənim həm də valideynlərimin arzusudur. Arzuma çatmaq üçün müəllimlərimin tapşırıqlarına ciddi yanaşıram. Bu gün təhsil aldığım ali məktəbdə yaxşı oxumağım üçün hər cür şərait yaradılıb. Boş vaxtlarımı da kitabxanada keçirirəm. Doğrusu, orta məktəbdə oxuyanda da belə idim. Sinif yoldaşlarım məni axtaranda kitabxanada tapırdılar”.

**Şakir CƏFƏROV**

# "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin növbəti iclası



"Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin növbəti iclası keçirilib.

İclasda Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva, iqtisadiyyat naziri Mikayıl Cabbarov, elm və təhsil naziri Emin Əmrullayev, xarici işlər nazirinin müavini Fariz Rzayev, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, Milli Məclisin deputatı Ülvi Quliyev, İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru Balakişi Qasımov, gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev və müsabiqənin işçi qrupu iştirak ediblər.

Təşkilat Komitəsinin üzvlərinə dördüncü "Yüksəliş" müsabiqəsinin yekunlaşması ilə bağlı hazırlanan hesabat təqdim edilib. İclasda dördüncü "Yüksəliş" müsabiqəsinin mentorluq proqramı ilə əlaqədar təkliflər müzakirə olunub, müvafiq qərarlar qəbul edilib. İclasda çıxış edən Komitə üzvləri layihənin gedişatı barədə qarşıdan gələn tədbirlərin uğurlu təşkili üçün bir sıra vacib təkliflər irəli sürüblər.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Prezidentinin 2019-cu il 26 iyul tarixli Sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi 21-51 yaş aralığında olan, intellektual səviyyəsi yüksək və azı iki il idarəçilik təcrübəsinə malik perspektivli rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir.

"Yüksəliş" müsabiqəsinin qalibini bir il ərzində idarəçi rəhbərlərdən — böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı və 20 min manat məbləğində pul mükafatı gözləyir.

Dördüncü "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Prezidenti tərəfindən 2023-cü il dekabrın 25-də Sərəncam imzalanıb.

# Elm və təhsil naziri Pakistan səfiri ilə görüşüb



## İki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlıq perspektivləri müzakirə edilib

Oktyabrın 7-də elm və təhsil naziri Emin Əmrullayev Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qasım Mohiuddin ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə edilib.

# Emin Əmrullayev Basketbol Liqasında yeni mövsümün açılışında iştirak edib



**Oktyabrın 10-da Azərbaycan Basketbol Liqasında 2024-2025 mövsümünün açılışına həsr olunmuş tədbir keçirilib.**

Tədbirdə əvvəlcə ötən mövsümün hesabatı təqdim olunub. Daha sonra Azərbaycan basketbolu ilə bağlı videoçarx nümayiş etdirilib.

Gənclər və idman naziri Fərid Qayıbov geridə qalan illər ərzində basketbol idman növü ilə bağlı bir çox işlər görüldüyünü vurğulayıb. Nazir bildirib ki, komandaların sayı artdıqca, basketbolun səviyyəsi də inkişaf edir.

Azərbaycan Basketbol Federasiyasının (ABF) prezidenti Emin Əmrullayev əvvəlcə ötən mövsümdə əldə olunan nəticələrə görə idmançılara, məşqçilərə təşəkkürünü ifadə edib. Uşaq basketbolunun inkişafının vacibliyini diqqətə çatdıran Emin Əmrullayev bu istiqamətdə aparılan işlərdən danışıb. Federasiya olaraq addım-addım irəlilədiklərini söyləyən ABF prezidenti əsas məqsədin ölkədə basketbolu daha da populyarlaşdırmaq olduğunu qeyd edib.

Yeni mövsümün daha maraqlı olacağını söyləyən Emin Əmrullayev sonda komandalara uğurlar arzulayıb.

Qeyd edək ki, Azərbaycan Basketbol Liqasında 2024-2025 mövsümünə oktyabrın 18-də start veriləcək.

# "Vahid tələbə kartı"nın verilməsinə başlanılacaq

**Oktyabrın 15-dən Azərbaycanda tələbələrə "Vahid tələbə kartı"nın verilməsinə başlanılacaq.**

Tələbə plus kartının ilkin mərhələdə 170 min tələbəyə, əsasən Elm və Təhsil Nazirliyinə tabe olan müəssisələrin tələbələri üçün nəzərdə tutulub. Növbəti mərhələlərdə isə digər bütün ali təhsil müəssisələrinin tələbləri də bu imkandan yararlanacaq.

"Azərbaycan müəllimi" xəbər verir ki, bunu Təhsilin İnkişafı Fondu İdarə Heyətinin sədri Elnur Nəsibov jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, kartların tətbiqinə oktyabrın 15-dən başlanacaq: "Vahid tələbə kartı"nın ilkin olaraq 11 universitetdə təhsil alan tələbələrə təqdim edilməsi nəzərdə tutulub. Sonrakı mərhələdə bu kartlar digər universitetlərə də şamil olunacaq:

"Tələbə kartları tələbələr üçün xüsusi endirimləri, müxtəlif sahələrdən onların rahat istifadəsini nəzərdə tutur. Gələcəkdə isə bu, nəqliyyat, sosial və s. kimi xidmətlərə də şamil ediləcək".

Qeyd edək ki, "Vahid tələbə kartı" Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Mühəndislik Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Türkiyə-Azərbaycan Universiteti, Azərbaycan-Fransız Universiteti (UFAZ), Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universitetinin tələbələrinə veriləcək.

# Nazirliyin mətbu orqanları ilə görüş keçirilib



Oktyabrın 3-də Elm və Təhsil Nazirliyinin mətbu orqanlarının redaksiya heyətləri ilə görüş keçirilib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanovun iştirakı ilə keçirilən görüşdə "Azərbaycan məktəbi", "Məktəbəqədər və ibtidai təhsil", "Azərbaycan dili və ədəbiyyat tədrisi", "Peşə təhsili və insan kapitalı" jurnalları və "Azərbaycan müəllimi" qəzetinin nümayəndələri iştirak ediblər.

Görüşdə çıxış edən nazir müavini Firudin Qurbanov müasir informasiya texnologiyalarının geniş yayıldığı bir dövrdə qəzet və jurnalların əhəmiyyətini itirməməsi baxımdan öz təklif və tövsiyələrini səsləndirib.

Gənclərin maariflənməsində təhsilyönümlü mətbu orqanlarının rolunu xüsusi vurğulayan nazir müavini görüş iştirakçılarına gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra mətbu orqanların baş redaktorları çıxış edib və onlara verilən dəstəyə görə təşəkkürlərini ifadə ediblər.

Görüşün sonunda mətbu orqanların əməkdaşlarına Elm və Təhsil Nazirliyinin "Fəxri Fərman" və "Təşəkkürnamə"si təqdim edilib.



# Həsən Həsənli ICESCO təhsil nazirlərinin 3-cü konfransında



**Elm və təhsil nazirinin müavini Həsən Həsənlinin Oman Sultanlığının Maskat şəhərində "Təhsilin transformasiyasının hüdudlarından kənar Sammiti: Öhdəlikdən fəaliyyətə" mövzusunda keçirilən İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatına (ICESCO) üzv ölkələrin təhsil nazirlərinin 3-cü konfransında iştirak edib.**



Konfransın ikinci günü açılış nitqləri səsləndirilib, sessiyalar keçirilib, qızların təhsili, mətbuat təhsili, təhsildə süni intellekt mədəniyyəti, təhsilin rəqəmsallaşdırılması və bu kimi digər mövzular üzrə hesabat və texniki sənədlər müzakirə edilib.

Sonda Maskat Bəyannaməsinin layihəsi qəbul edilib. Qeyd edək ki, konfransda 40-dan çox üzv ölkənin təhsil üzrə yüksək səviyyəli nümayəndə heyətləri, sabiq dövlət başçıları, eləcə də beynəlxalq təşkilatların sədrləri və təhsil üzrə məsul şəxsləri iştirak edib.

# TƏHSİLİN İNKİŞAFI FORUMU 2024





## Bugünkü proqramlar 20 il əvvəlki ilə müqayisədə daha mütərəqqidir

**“Ali təhsil müəssisələrində tədris proqramını dəyişmək özlüyündə ağrılı problemdir. Dəyişiklik etmək bəzən sürətli şəkildə alınmır. Burada bəzən təhsillə bağlı səbəblər ön planda dayanmır. Biz bir dəyişiklik edərkən sosial tərəfləri də nəzərə almalıyıq. Əvvəlcə problemi tanımalıyıq. Bu yalnızca universitetlərin yükü deyil. Bugünkü proqramlar 20 il əvvəlki ilə müqayisədə daha mütərəqqidir”.**




## “Tərəfdaşlıqdan Tərəqqiyə”

**Oktyabrın 8-də Elm və Təhsil Nazirliyi, Təhsilin İnkişafı Fondu, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunan Təhsilin İnkişafı Forumu keçirilib. “Tərəfdaşlıqdan Tərəqqiyə” şüarı ilə təşkil olunan forumun keçirilməsində əsas məqsəd dövlət-universitet-sənaye tərəfdaşlığının dayanıqlı və davamlı inkişafı ilə yanaşı, birgə dialoq üçün uyğun platforma yaratmaq və prosesə hərtərəfli dəstək göstərməkdir. Forum hər il dövlət-özəl tərəfdaşlığı, təhsilin iqtisadiyyata inteqrasiyası və universitet-sənaye əməkdaşlığına dair ən vacib məsələlərin müzakirəsi üçün faydalı platforma təmin edir.**

**Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, dövlət rəsmiləri, millət vəkilləri, ali təhsil müəssisələrinin rəhbərləri, özəl sektor əməkdaşları və digər qonaqlar iştirak ediblər.**

**Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Təhsilin İnkişafı Fondunun fəaliyyətinə dair videoçarx nümayiş etdirilib.**

**Açılış nitqi ilə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev ölkədə ikinci dəfədir keçirilən Təhsilin İnkişafı Forumunun müxtəlif tərəfləri, özəl və dövlət qurumlarını bir araya gətirdiyini vurğulayıb. Nazir Təhsilin İnkişafı Fondunun yaradılmasının tərəqqiyə atılan bir addım olduğunu bildirib.**

**Emin Əmrullayev çıxışının sonunda forumun işinə uğurlar arzulayıb.**

**Daha sonra TÜBİTAK TEMEG-in İdarə Heyətinin üzvü, “CATALYSADE Technology Transfer and Innovation Inc” şirkətinin təsisçisi Sanem Yalçıntaş təqdimatla çıxış edib.**

**Tədbir panellərlə davam etdirilib.**

### “Biliyi dəyərə çevirən sinerji”

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibovun moderatorluq etdiyi “Biliyi dəyərə çevirən sinerji” adlı ilk paneldə elm və təhsil naziri Emin Əmrullayev, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf, Azərbaycan Respublikasının Kosmik Agentliyinin İdarə Heyətinin sədri Səməddin Əsədov çıxış ediblər.

### “Tədqiqatdan inkişafa gedən yol”

Forumun ikinci paneli “Tədqiqatdan inkişafa gedən yol” mövzusuna həsr olunub.

Paneldən əvvəlcə Türkiyənin TED Universitetinin rektoru İhsan Sabuncuoğlu məruzə ilə çıxış edib.

Daha sonra Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru Fariz Cəfərovun moderatorluğu ilə keçirilən paneldə elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli, bp-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Kapital Bankın İdarə Heyətinin üzvü Fərid Hidayətzadə spiker qismində çıxış ediblər.

Panel çərçivəsində “Beynəlxalq reytinqlərdə universitetlərin mövqeyini artırmaq üçün strateji əməkdaşlıqlar”, “Tədqiqat və inkişafda universitet-sənaye tərəfdaşlığının əhəmiyyəti”, “Universitet-sənaye tərəfdaşlığının perspektivləri”, “İnnovasiya və tədqiqat mərkəzlərinin yaradılması və dəstəklənməsi”, “İnnovativ tədqiqatların sənaye ilə inteqrasiyası və kommersiyalaşdırılması” mövzuları ətrafında müzakirələr aparılıb.

Forum çərçivəsində bp şirkəti ilə Təhsilin İnkişafı Fondu arasında "Tələbə yataqxanalarının texniki-maliyyə əsaslandırma sənədi"nin hazırlanmasına dair Əməkdaşlıq Memorandumu imzalanıb.

### “Gələcəyi gənclərə necə hazırlamalı?”

“Gələcəyi gənclərə necə hazırlamalı?” mövzusuna həsr olunan üçüncü paneldə Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkının baş direktoru Nihat Məcidov məruzə ilə çıxış edib.

Daha sonra STP Şirkətlər Qrupunun baş insan resursları inzibatçısı Şölə Əliyevanın moderatorluğu ilə keçirilən paneldə Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Sadiq Əliyev, Milli Məclisin deputatı, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə, “Coursera”nın Hökumətlə tərəfdaşlıqlar üzrə direktoru Akanksha Kapoor, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının sədri Araz Paşayev, NEQSOL Holdinq Azərbaycan ofisinin rəhbəri İmran Əhmədzadə spiker qismində çıxış ediblər.

Panel çərçivəsində “Sənayeyə uyğun ortaq tədris proqramları”, “İnsan kapitalının inkişafında yeni modellər”, “Gənclərin iş həyatına inteqrasiyasını dəstəkləyən proqramlar və təşəbbüslər” mövzularından bəhs olunub.

Qeyd edək ki, “Tərəfdaşlıqdan Tərəqqiyə” şüarı ilə təşkil olunan forum Kapital Bank, STP Şirkətlər Qrupu, “Bestcomp Group” və “Veysəloğlu” Şirkətlər Qrupunun baş sponsorluğu, SOCAR, “British Petroleum” və “Lenovo”nun sponsorluğu ilə keçirilib.

# “Daha təhsilli gələcək”







**Emin Əmrullayev:**

**“Ətraf mühit sağlamlığı istiqamətində COP29 çərçivəsində görüləcək işlər barədə danışarkən qeyd edilməlidir ki, bir çox təhsil sistemlərində necə ki, təbiət elmləri və riyaziyyat fənlərində ölçmələr aparılır, eləcə də ətraf mühitin sağlamlığı istiqamətində ölçmələr aparılmalıdır.**

**“Təhsildə Yeni Çağırışlar” V Beynəlxalq Forumunun əsas mövzuları ekoloji savadlılıq ilə bağlıdır. Bu da təsadüfi deyil. Noyabr ayında Azərbaycanın ev sahibliyi edəcəyi COP29 tədbiri ərəfəsində yaşıl bacarıqların necə aşılanması müzakirə olunacaq. COP29-un Azərbaycanda keçirilməsi təhsil sahəsində qlobal trendlərə qoşulmaq üçün də çox geniş imkanlar yaradacaq”.**

**Dominik Savaj:**

**“Məktəblər yaşıl bacarıqları effektiv inkişaf etdirmək üçün təşəbbüslər həyata keçirə bilər. Dünya iqlim dəyişikliyinin təsirləri ilə mübarizə apararkən adətən onun təhsilə təsiri nəzərdən qaçır. Halbuki planetin artan temperaturu və istilik dalğaları təkcə ətraf mühiti təhdid etmir, həm də bütün dünyada milyonlarla uşağın təhsilinə mane olur.**

**Hökumətlər təhsil sektorunun planlaşdırılmasında iqlimə müqaviməti inteqrasiya edən siyasi islahatlar həyata keçirirlər. Bu təşəbbüslər yaşıllaşdırma bacarıqlarını təşviq edir, uşaqları və gəncləri iqlimə uyğun ağıllı həll yolları və yerli iqlimin qorunması təbliğatına cəlb edir”.**

**Andreas Şleyxer:**

**Uşaqlarda “yaşıl bacarıqlar”ın formalaşmasında COP29 yaxşı fürsətdir: “Təhsil sistemlərində iqlim dəyişikliyi mütləq əks olunmalıdır. Araşdırmalar göstərir ki, iqlim dəyişikliyinə uyğunlaşmaq üçün təhsil sistemləri dərhal tədbirlər görməlidir. İqlimə daha çox həssas olan ölkələr bu sahədə təcrübə və fövqəladə vəziyyətə hazırlıq bacarıqlarını gücləndirməyə çalışırlar. Hökumətlər isə təhsil sektorunda iqlimə davamlılıq prinsiplərini inteqrasiya edərək müvafiq islahatlar aparır. Bu yanaşmalar şagirdləri iqlim dəyişikliyinə uyğun ağıllı həllər və yerli ətraf mühitin qorunması üçün maarifləndirir”.**

# Ətraf mühitin sağlamlığı istiqamətində ölçmələr aparılmalıdır

## “Təhsildə Yeni Çağırışlar” V Beynəlxalq Forumundan reportaj

Oktyabrın 4-də ADA Universitetində “Təhsildə Yeni Çağırışlar” V Beynəlxalq Forumu keçirilib.

Beynəlxalq Forum Elm və Təhsil Nazirliyi, Dünya Təhsil Forumu və Təhsilin İnkişafı Fondunun tərəfdaşlığı, “T-Network” təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının və ADA Universitetinin təşkilatçılığı, “Azərbaycan müəllimi” qəzeti, Təhsil TV və “Azərbaycan məktəbi” jurnalının media dəstəyi ilə hibrid formada reallaşıb.

“Yaşıl dünya naminə həmrəylik ili”nə həsr edilən və COP29 ideyasını özündə ehtiva edən beynəlxalq forum “Daha təhsilli gələcək” devizi ilə baş tutub.

Forum Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.






### COP29-un Azərbaycanda keçirilməsi təhsil sahəsində qlobal trendlərə qoşulmaq üçün çox geniş imkanlar yaradacaq

Açılış nitqi ilə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev forumun təhsil haqqında müzakirələri peşəkar səviyyəyə qaldıran bir platforma olaraq əhəmiyyətini vurğulayıb və artıq 5-ci dəfə keçirilməsini yüksək qiymətləndirib. Dünyanın bütün təhsil sistemlərində oxşar problemlər olduğunu və onların müzakirəsinin faydalılığını qeyd edən Emin Əmrullayev ölkəmizin təhsil fəlsəfəsi, təhsil liderliyi, elmi tədqiqatlara əsaslanan təhsil prosesi, təhsilin məzmunu, müəllimlər üçün bilik qədər insani keyfiyyətlərin də əhəmiyyətli olması, ali təhsilə baxış məsələlərinə toxunub.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsinin təhsil sahəsində qlobal trendlərə qoşulmaq üçün çox geniş imkanlar yaradacağına inamını ifadə edən Emin Əmrullayev məktəblərdə ətraf mühit savadlılığı ilə bağlı ölçmələr aparılmasının, yeni mədəniyyət və davranışların formalaşmasının vacibliyini vurğulayıb.

Nazir sonda müəllim adının məsuliyyətini bir daha xatırladaraq 5 oktyabr — Beynəlxalq Müəllimlər Günü münasibətilə bütün müəllimləri təbrik edib və onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Forumun moderatoru, “T-Network” platformasının rəhbəri Cəfər Mənsimi qonaqları salamlayaraq forumun məqsəd və əhəmiyyəti barədə danışıb. Bildirib ki, forumun təşkilində əsas məqsəd təhsildə yeni çağırışları müzakirə etmək, ekoloji təhsilə, xüsusilə “yaşıl təhsil” ideyasına diqqəti artırmaq, yeni dövrün təhsil tələblərini nəzərdən keçirərək keyfiyyətin daha da yüksəldilməsinə nail olmaqdır. Forum “Ekoloji savadlılıq və davranış mədəniyyəti, təhsildə yaşıl çağırışlar və öhdəliklər, yaşıl bacarıqlar strategiyası: təhsilin gələcəyi və ekoloji innovasiyalar, təhsildə liderlik və ekoloji səmərəlilik, yaşıl öyrənmə mühiti və müəllim hazırlığı, təhsildə iştirakçılıq və əməkdaşlıq ekosistemi” mövzularını əhatə edir.

### “Məktəblər yaşıl bacarıqları effektiv inkişaf etdirmək üçün hansı təşəbbüsləri həyata keçirə bilərlər?”

Daha sonra Dünya Təhsil Forumunun direktoru Dominik Savaj “Məktəblər yaşıl bacarıqları effektiv inkişaf etdirmək üçün hansı təşəbbüsləri həyata keçirə bilərlər?” mövzusunda təqdimatla çıxış edib. Dominik Savaj ətraf mühitin qorunmasında gənc nəslin rolunun daha önəmli olduğunu, buna görə də ailədə və məktəbdə onların özlərinə dəyər verən şəxsiyyət kimi formalaşmasının vacibliyini vurğulayıb. Onun sözlərinə görə, özünü dəyərli hiss etməyən insan planetə də hörmət etməz və ona dəyər verməz.

Dominik Savaj bildirib ki, dünya iqlim dəyişikliyinin təsirləri ilə mübarizə apararkən adətən onun təhsilə təsiri nəzərdən qaçırılır. Halbuki planetin artan temperaturu və istilik dalğaları təkcə ətraf mühiti təhdid etmir, həm də bütün dünyada milyonlarla uşağın təhsilinə mane olur. O qeyd edib ki, məktəblər yaşıl bacarıqları effektiv inkişaf etdirmək üçün təşəbbüslər həyata keçirə bilər.

Uşaqlarda yaşıl bacarıqların formalaşmasında COP29-un yaxşı bir fürsət olduğunu deyən Dominik Savaj əlavə edib ki, ölkələrin kurikulum sistemində də iqlim dəyişikliyi mütləq nəzərə alınmalıdır.




### “Dayanıqlı inkişaf yolunda təhsil”

Foruma onlayn qatılan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxer isə “Dayanıqlı inkişaf yolunda təhsil” mövzusunda geniş təqdimat edib. Andreas Şleyxer PISA tədqiqatları əsasında müxtəlif ölkələrdə 15 yaşlı məktəblilərin ekoloji savadlılığının təhlil nəticələri və təbiət fənlərinə diqqəti artırmaqla planetin gələcəyinə sərmayə qoymağın vacibliyindən danışıb.

Forum çərçivəsində Estoniyada ekoməktəblər üzrə koordinator Maris Məgi “Ekoloji şüurlu şagirdləri necə yetişdirmək olar? Ekoməktəblərdən dərslər”, ADA Universitetinin prorektoru Vəfa Kazdal “Təhsildə iştirakçılıq və əməkdaşlıq ekosistemi”, pedaqogika üzrə tanınmış alim, təhsil tədqiqatçısı Özgür Bolat “Təbiət uşaqların nailiyyətlərinə və xoşbəxtliyinə necə təsir edir?” mövzularında təqdimatlarla çıxış ediblər. Təqdimatlarda ekoməktəblərin təcrübəsindən, fənlərarası inteqrasiyanın artırılmasının yaşıl dünya tələblərinə cavab vermək baxımından vacibliyindən, valideyn-övlad, müəllim-şagird münasibətlərindən danışılıb.

Beynəlxalq forum çərçivəsində “Təhsildə hansı yaşıl çağırışlar var və bu çağırışlar hansı öhdəliklər yaradır?”, “Təbiətlə dost olan şagirdlərin yetişdirilməsi üçün hansı addımların atılmasına ehtiyac var?”, “Ekoloji savadlılıq və davranış mədəniyyətinin inkişafına təkan vermək üçün təhsildə hansı ənənəvi yanaşmaları yeni yanaşmalarla əvəz etmək lazımdır?”, “Yaşıl məktəb ideyası mövcud kurikulumlara necə inteqrasiya olunmalıdır?” sualları ətrafında da müzakirələr aparılıb.

Qeyd edək ki, forumun əsas tərəfdaşlarından biri sayılan Dünya Təhsil Forumu təhsil və bacarıqlar nazirlərinin ən böyük illik toplantısıdır. Hər il Londonda keçirilən Dünya Təhsil Forumunda dünya əhalisinin 80 faizindən çoxunu təmsil edən nazirlər və onların baş məsləhətçiləri gələcək təhsil siyasətini müzakirə etmək üçün bir araya gəlirlər.

# TƏHSİL QARABAĞA QAYIDIR

## Firudin Qurbanov Şuşa, Xankəndi və Xocalı məktəblərində olub



Oktyabrın 10-da elm və təhsil nazirinin müavini Firudin Qurbanov Şuşa şəhəri 1 nömrəli, Xankəndi şəhəri Nizami Gəncəvi adına 4 nömrəli və Xocalı şəhəri 1 nömrəli tam orta məktəblərinə baş çəkib. Səfərin məqsədi işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən təhsil ocaqlarında yaradılmış şəraitlə tanış olmaq, məktəb kollektivi ilə görüş keçirmək olub.

Nazir müavini sözügedən məktəblərdə tədris prosesini izləyib, şagird və müəllimlərlə səmimi söhbət aparıb. Görüşlər zamanı məktəbin idarə olunması və tədris prosesinin daha da inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb, müəllimlərin təklif və fikirləri dinlənilib, qarşıdakı məqsədlər müzakirə olunub.

Firudin Qurbanov səfəri zamanı bu ərazilərdə yaşayan şagirdlərin yüksək keyfiyyətli təhsil alması istiqamətində həyata keçirilən işlərlə tanış olub və təhsil şəraitinin daha da yaxşılaşdırılması üçün müvafiq göstərişlər verib.



## Nazir müavini Ağalıda







**Oktyabrın 9-da elm və təhsil nazirinin müavini Firudin Qurbanov Zəngilan rayonu Ağalı kənd tam orta məktəbində olub.**

Məktəbdə mövcud şəraitlə tanış olan nazir müavini tədris prosesini izləyib, şagird və müəllimlərlə səmimi söhbət aparıb.

Məktəbin fəaliyyət göstərdiyi müddət ərzində əldə etdiyi nailiyyətlər, müasir tədris metodları barədə məlumat verən direktor Azər Niftəliyev qeyd edib ki, hazırda təhsil müəssisəsində 162 şagird təhsil alır.

Daha sonra məktəbin pedaqoji kollektivi ilə keçirilən görüşdə nazir müavini ümumi təhsil müəssisələrinin idarə olunması və tədrisin təşkili baxımından qarşıda duran hədəf və istiqamətlər barədə danışıb, müəllimlər ilə söhbət aparıb, onların təkliflərini dinləyib.

Firudin Qurbanov Zəngilan rayonu Ağalı kənd körpələr evi-uşaq bağçasında yaradılmış şərait ilə də tanış olub, tərbiyəçi müəllimlərlə söhbət aparıb.

## Cəbrayılda ilk dərs günü

### Firudin Qurbanov: "Məktəbin pedoqoji heyətinin Cəbrayıl sakinlərindən ibarət olması sevindirici haldır"

Oktyabrın 9-da Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına tam orta məktəbdə ilk dərs günü ilə bağlı tədbir keçirilib.

Tədbirdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, millət vəkili Ceyhun Məmmədov, Şərqi Zəngəzur Regional Təhsil İdarəsinin müdiri Fuad Bədəlov, məktəb kollektivi və valideynlər iştirak ediblər.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov Qarabağda tədris prosesinin qısa zamanda bərpasını ölkəmizdə təhsilin inkişafına göstərilən yüksək diqqət və qayğının bariz nümunəsi kimi qiymətləndirib. Məktəbin 23 nəfərdən ibarət pedaqoji heyətinin Cəbrayıl sakinlərindən ibarət olmasını sevindirici hal kimi qeyd edən nazir müavini iki il sonra 150 illiyi tamam olacaq sözügedən məktəbin şagirdlərinin ölkəmizin gələcək inkişafında aktiv iştirak edəcəklərinə əminliyini ifadə edib.

Nazir müavini çıxışının sonunda şagird və müəllimlərə tədris nailiyyətləri arzulayıb.

Çıxış edən Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev bildirib ki, bu gün artıq sıfırdan qurulan Cəbrayılda nəhəng infrastruktur layihələri həyata keçirilir. Cəbrayılda 5 böyük müəssisə qurulub ki, orada minlərlə insan çalışacaq. Vahid Hacıyev akademik Mehdi Mehdizadə adına tam orta məktəbin şagirdlərinin gələcəkdə həmin müəssisələrin mütəxəssisi olaraq çalışacaqlarına və Cəbrayılın inkişafına dəstək verəcəklərinə inamını ifadə edib.

Vahid Hacıyev sonda məktəb kollektivini təbrik edib və uğurlar arzulayıb.

Tədbirdə iştirak edən Milli Məclisin deputatı Ceyhun Məmmədov da vaxtilə sözügedən məktəbdə təhsil aldığını diqqətə çatdırıb. İşğaldan azad edilən bölgələrin yenidən qurulması və dirçəlməsi üçün həyata keçirilən davamlı tədbirləri vurğulayan Ceyhun Məmmədov bu ərazilərdə müasir standartlara cavab verən təhsil müəssisələrinin inşasını qürurverici hal kimi qiymətləndirib.








İllər əvvəl təhsil aldığı məktəbə 31 il sonra direktor olaraq geri dönən Şəlalə Qasımlı çıxışında sevinc hisslərini bölüşüb.

Çıxış edən digər qonaqlar da sevinc təəssüratlarını bölüşüb və məktəb kollektivinə uğurlar arzulayıblar.

Daha sonra məktəbdə yaradılan şəraitlə tanışlıq olub, dərs prosesi izlənilib.

Qeyd edək ki, 960 şagird yerlik məktəbdə 2024-2025-ci tədris ilində təhsil alacaq 133 şagird və məktəbəhazırlığa cəlb olunan 16 uşaqla 23 nəfərdən ibarət pedaqoji heyət çalışacaq. Ərazisi 2,7 hektar olan məktəbdə 40 sinif otağı və 5 inzibati otaq var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Təhsil ocağında, həmçinin kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 4 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb. Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil ocağının həyətində abadlıq işləri görülüb, futbol, basketbol, voleybol və açıq oyun meydançaları yaradılıb.

# Bədii yaradıcılıq müsabiqə-festivalının qalibləri mükafatlandırılıb

**Oktyabrın 4-də Elm və Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə qərarı ilə cari ildə ali təhsil müəssisələrinin tələbələri arasında keçirilən, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalının qalibləri mükafatlandırılıb.**





Tədbirdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Araz Paşayev, tələbələr və digər qonaqlar iştirak ediblər.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycanda gənclər siyasətinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu və hazırda bu siyasətin Prezident cənab İlham Əliyev tərəfindən uğurla icra olunduğunu qeyd edərək gənclər siyasətinin Azərbaycanda prioritet istiqamətlərdən birini təşkil etdiyini bildirib.

Nazir müavini hər il gənclərin inkişafı ilə bağlı fərman və sərəncamların imzalandığını, dövlət proqramlarının uğurla icra olunduğunu və bu tədbirlərin gənclərimizi uğurlara ruhlandırdığını vurğulayıb. Çıxışda Ulu Öndər Heydər Əliyevin Azərbaycan təhsili və gəncliyinə göstərdiyi diqqət və qayğı nəticəsində xaricdə təhsil alan gənclərin indi dövlət qurumlarında yüksək mövqelər tutduğu, Ümummilli Liderin ideyalarına sadiq qalan gəncliyimiz sayəsində 30 ilə yaxın işğalda olan torpaqlarımızın azad edilməsi diqqətə çatdırılıb.

Sonda nazir müavini tələbələrə uğurlar diləyib və onları təbrik edib.

Daha sonra müsabiqə-festivalda qalib olan tələbələrə fəxri fərman və qiymətli hədiyyələr təqdim olunub.

Qeyd edək ki, cari ildə müsabiqə-festivalda respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinin (musiqi təmayüllü ali təhsil müəssisələri istisna edilməklə) əyani şöbələrində təhsil alan tələbələrdən ibarət özfəaliyyət yaradıcılıq kollektivləri, dərnək və studiyaları, onlardakı solo ifaçılar, həvəskar müğənni, rəqqaslar, bədii qiraətçi, musiqiçilər, həmçinin orkestr və ansambllar (xor, xalq çalğı alətləri, estrada, vokal-instrumental, simli alətlər, aşıqlar və s.), rəqs kollektivləri (milli, müasir, bal və s.), solo ifaçılar (bədii qiraətçilər, müxtəlif musiqi alətlərində ifa edən fərdi ifaçılar, solo ifaçılar və s.) iştirak edib.

Müsabiqə-festivala respublika üzrə 26 ali təhsil müəssisəsindən 3000-dən çox tələbə qatılıb.

Layihənin əsas məqsədi tələbələri milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörmət ruhunda tərbiyə etmək, onların bədii-estetik səviyyəsini yüksəltmək, incəsənət və mədəniyyətimizin ayrı-ayrı sənət növləri üzrə istedadlı gəncləri üzə çıxarmaq, asudə vaxtlarını səmərəli və mənalı təşkil etməkdən ibarət olub.




Dünya universitetləri təcrübəsi

# İqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlıq

Qloballaşma cəmiyyətlər üçün həm hədsiz imkanlar, həm də ciddi çətinliklər yaradıb. Son illər qloballaşmanın təsiri ilə iqlim dəyişikliyi, ətraf mühitin korlanması, maliyyə böhranları və yoxsulluq dayanıqlı inkişafa ciddi təhdidlər yaratmaqda davam edir. Bu problemlər qlobal olduğu üçün onlara effektiv həll yollarının tapılmasında həm beynəlxalq, həm də regional əməkdaşlıq tələb olunur. Bu baxımdan universitetlər mürəkkəb qlobal problemlərin həllində aparıcı rola malikdir. Universitetlər elmi biliyin istehsalçısı olmaqla yanaşı, ortaq problemlərin həlli üçün inteqrativ əməkdaşlıq platformasıdır. Araşdırmalar göstərir ki, əməkdaşlıqla problemlərin həlli universitetlərə qlobal risklərə daha effektiv cavab verməyə imkan yaradır. Çünki sözügedən əməkdaşlıq qlobal problemlərlə mübarizə aparmaq üçün müəllimlərin, tədqiqatçıların, investorların və müxtəlif sahələrdə çalışan peşəkarların bir araya gəldiyi qlobal cəmiyyətlə formalaşır.

## Universitetlərdə qlobal problemlərin həllində yerli və beynəlxalq tədqiqat əməkdaşlığı

Tədqiqat əməkdaşlığı iqlim dəyişikliyinin təsirlərinə uyğunlaşma, ictimai rifahın yüksəldilməsi və enerji davamlılığı kimi bir çox qlobal məsələlərin həlli üçün çox mühüm rol oynayır. Əməkdaşlıqla tədqiqat aparılması sadəcə ortaq araşdırma prosesi deyil, həm də universitetlərin yerli və beynəlxalq icmalarla birlikdə təxirəsalınmaz qlobal problemlərə həll yolları yaratmasına imkan verən transformativ vasitədir. Buna misal olaraq Cənubi Afrikada yaradılmış Qlobal Dəyişiklik Böyük Çağırışı Milli Tədqiqat Planı (Global Change Grand Challenge National Research Plan) iqlim risklərinə cavab vermək üçün universitetlər, hökumətlər və beynəlxalq qurumlar arasında əməkdaşlığı təşviq edən fənlərarası tədqiqat təşəbbüslərini hazırlayıb və bu təşəbbüslərin qlobal risklərə qarşı mübarizə aparmaqda xüsusi rola malik olduğunu göstərib.

Qeyd edək ki, son dövrlərdə Afrika universitetləri yerli iqlim problemlərinin həllinə yönəlmiş tədqiqat və əməkdaşlıqlarla qlobal səviyyədə daha çox tanınır. Təsadüfi deyil ki, bu da Afrikanın yerli iqlim problemlərinin beynəlxalq platformalarda nəzərə alınmasına imkan yaradır. Gələcəkdə digər qitələrdəki universitetlər də yerli problemləri həll etmək üçün daha çox araşdırma və əməkdaşlığa diqqət yetirməli, bu işləri beynəlxalq aləmdə paylaşmalıdırlar. Bu yanaşma yerli problemlərin həllində daha geniş miqyasda təsirli ola, həmçinin qlobal məsələlərə daha dolğun perspektiv gətirə bilər. Buna bənzər olaraq son illərdə Danimarkada bir araşdırma aparılıb və Danimarka universitetlərinin istixana qazı emissiyalarını azaltmaq üçün iştiraklı fəaliyyət tədqiqatından istifadə edilib. Nəticədə, bu prosesin həm yerli, həm də beynəlxalq səviyyədə əməkdaşlıqla effektivliyinin artırıldığı müşahidə edilib. Bu yanaşma universitetlərin həm də qlobal icmalarla birlikdə transformativ həllər tapma gücünə malik olduğunu göstərir.

Həmçinin dünya təcrübəsi onu göstərir ki, müxtəlif tədqiqat universitetləri milli fəaliyyət planları çərçivəsində beynəlxalq magistratura və doktorantura proqramları hazırlamaqla beynəlxalq əməkdaşlığı inkişaf etdirir, həmçinin yerli və beynəlxalq məkanda qlobal risklərin azaldılmasına səy göstərirlər. Buna misal olaraq İsveçdəki Lund Universiteti də müxtəlif magistr proqramları təklif edən universitetlərdən biridir. Belə ki, Fəlakət Risklərinin İdarə Edilməsi və İqlim Dəyişikliyinə Uyğunlaşma Proqramı bu proqramlardan biridir. Bu proqramın təşkili zamanı qrup işi, müəllim-tələbə heyəti arasında əməkdaşlıq və qarşılıqlı əlaqə yüksək prioritet kimi müəyyən edilir. Əlavə olaraq BMT agentlikləri, Qırmızı Xaç və Qızıl Aypara Hərəkatı, Qeyri-Hökumət Təşkilatları (QHT) kimi milli və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir.

## Texnoloji yenilik qlobal əməkdaşlığın aparıcı qüvvəsi kimi

Uğurlu tərəfdaşlıqlar güclü resurslara və dünya miqyasında nüfuza malik institutlarla əməkdaşlıqdan asılıdır. Bu əməkdaşlıq yeni yaranmaqda olan texnoloji avadanlıqların imkanlarından geniş şəkildə istifadə etmək imkanı yaradır. 2011-ci ildə Vaterloo Universiteti (Waterloo University) və Sudjou Universitetinin (Soochow University) əməkdaşlığı ilə yaradılan Birgə Tədqiqat və Təhsil İnstitutu buna bir nümunədir. Bu institutun məqsədləri hər iki təhsil müəssisəsinin professorlarının tədqiqat əməkdaşlıqlarına cəlb edilməsinə imkan yaratmaq, tədqiqatçıların mübadiləsini təşviq etmək, nanotexnologiyada sahibkarlığı və innovasiyanı stimullaşdırmaqdır. Bu əməkdaşlıq nanotexnologiya sahəsində tədqiqatları inkişaf etdirərək enerji davamlılığını yaxşılaşdırmaq, günəş panellərinin səmərəliliyini artırmaq və daha yaxşı yanacaq istehsalı texnologiyaları yaratmaq kimi nailiyyətlərə səbəb olub. Bu cür layihələr beynəlxalq əməkdaşlığın elmi tərəqqini və ətraf mühit problemlərinin həllini necə sürətləndirə biləcəyini əyani şəkildə nümayiş etdirir.

Bundan başqa, araşdırmalar göstərir ki, geoməkan texnologiyası da digər texnoloji vasitələr kimi, qlobal problemlərin həllində universitetlərə yeni vasitələr təqdim edir. Kaliforniyada bir qrup tələbə NASA-nın "İqlim Dəyişikliyinin Tədrisinə Riyazi və Geoməkan Yanaşmalar" (Mathematical and Geospatial Pathways to Climate Change Education) adlı proqramı çərçivəsində Qlobal İqlim Dəyişikliyinin öyrənilməsi üçün Coğrafi Məlumat Sistemləri (GIS), uzaqdan zondlama və peyk məlumatları texnologiyasından istifadə ediblər. Bu proqram vasitəsilə tələbələr qrup şəklində peyk məlumatları texnologiyası və digər texnoloji yeniliklərdən istifadə etməyi öyrənir, qar örtüyünü və meşələrin qırılmasının xəritələrini çəkməklə qlobal dəyişiklikləri qiymətləndirir və nəticədə, ətraf mühitdə öyrəndiklərini sınaqdan keçirirlər. Beləliklə, universitet texnologiyanı əməkdaşlıq səylərinə inteqrasiya edərək tələbələrə qlobal problemlərin həllində praktik bacarıqlar aşılaya bilirlər.

## Təhsil institutlarında transformasiya və qlobal öhdəliklər

Universitetlər resurslarla zəngin regionlarda innovasiyalar və yerli iqlim problemlərinin həllində dəyişiklik agentləri kimi çıxış edirlər. Əgər müxtəlif ərazilərdə yerləşən 20 000-dən çox ali təhsil müəssisəsinin kiçik bir faizi hər il azı beş tələbə və bir professorla əməkdaşlıq mühitində çalışaraq iqlim dəyişikliyi və digər qlobal problemlər haqqında insanları maarifləndirmək üçün yanaşmalar hazırlasa, həmçinin qlobal problemlərə qarşı dayanıqlıq strategiyaları tərtib etsə, bu, yerli koalisiyalara qiymətləndirmə, uyğunlaşdırma, tətbiq və dəyərləndirmə üçün konkret strategiyaların inkişafını sürətləndirəcəkdir. Bu cür proqramlar birgə sorğu vasitəsilə tələbələrin iqlim məsələlərini başa düşmələrini artırmaqla beynəlxalq həmyaş əməkdaşlığını təşviq etmək üçün çox əhəmiyyətlidir.

Maraqlıdır ki, bu ideyaya oxşar fikirləri əks etdirən layihə hələ 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində qəbul olunub. Lakin müxtəlif regionları təmsil edən universitetlərin böyük bir qismini bu prosesə cəlb etmək mümkün olmayıb. Bu da onu göstərir ki, belə layihələrin təşkili üçün resurs çatışmazlığı hələ də mövcuddur, həmçinin universitetlər digərləri ilə əməkdaşlığa elə də maraq göstərmir. Buna baxmayaraq, qlobal təhsil məkanında hələ də müxtəlif proqramlar tələbələrin əməkdaşlığına və qlobal problemlərin əməkdaşlıq yolu ilə həllinə öz müsbət töhfəsini verməyə davam edir. Misal üçün, Erasmus Mundus Şəhər İqlimi və Dayanıqlığı üzrə Magistr Proqramı kimi beynəlxalq proqramlar tələbələri fərqli ölkələrdən bir araya gətirərək iqlim dəyişikliyi ilə mübarizə aparan strateji layihələr üzərində işləməyə təşviq edir.

Sinqapur və Avstraliyada aparılan təhlillər göstərir ki, hər iki ölkənin 2000-2019-cu illər ərzində müxtəlif sektorlarında tətbiq olunan iqlim dəyişikliyi siyasətlərinin uğur və risk amilləri fərqli formalarda özünü büruzə verib. Burada uğurlu olmaq üçün əsas amil isə dövlət, sənaye və universitetlərin intellektual və texnoloji əməkdaşlığın vacibliyini qəbul etməsi, həmçinin iqlim dəyişikliyinə elmi həllərin uzunmüddətli fayda və yeni biznes imkanları yaradacağına inamdır. Bundan əlavə, bu üçlük (dövlət, sənaye və universitet) münaqişələrin qabaqcadan qarşısının alınması və onları azaltmağa yönələn sadiqliyi ilə də müsbət nəticələr əldə edib. Lakin müəyyən risk amilləri də diqqətdən kənarda qalmayıb. Bu məsələyə hökumətlərin qeyri-sabit ekoloji iradəsi və zəif nəzarət mexanizmləri də daxildir. Tapıntılar iqlim dəyişikliyi ilə mübarizədə hökumət, sənaye və universitetlərin güclü əməkdaşlığının vacibliyini vurğulayır.

## Əməkdaşlıqdan qlobal dayanıqlığa

Nəticə etibarilə, universitetlər qlobal problemlərlə bağlı bilik və bacarıqların inkişaf etdirilməsi üçün əsas güc mənbəyidir və qlobal problemlərin həlli yollarının aşkar edilməsində və bu problemlərin aradan qaldırılmasında mühüm rol oynayır. Birgə proqramların yaradılması kimi təşəbbüslərin davamlı həyata keçirilməsi müxtəlif regionlarda qlobal risklərin təsirini azaltmaq baxımından mühüm əhəmiyyətə malikdir. Belə təşəbbüslər qlobal problemlərin öyrənilməsi vasitəsilə mütəxəssis biliklərinin formalaşmasına və insanların hərtərəfli təhsilinə zəmin yarada bilər. Həmçinin Erasmus Mundus layihə əsaslı birgə magistr proqramlarına bənzər lokal səviyyədə təhsil proqramların bir region daxilində yaradılması tələbələri bir araya gətirərək qlobal məsələlərin həllinə yönəlmiş tədqiqat işlərinə cəlb etmək üçün effektiv həll yolları təklif edə bilər. Digər tərəfdən, proqramların ənənəvi qaydada deyil, distant qaydada təşkil edilməsi və beləliklə distant formada əməkdaşlığın inkişafı həm bir region daxilindəki, həm də müxtəlif regionlarındakı tələbə və müəllimlərin birgə fəaliyyətini reallaşdıra bilər. Yekun olaraq, qeyd edə bilərik ki, fənlərarası tədqiqatlar, texnoloji yeniliklər və beynəlxalq tərəfdaşlıqlar vasitəsilə universitetlər qlobal problemlərin həllində və dayanıqlı inkişafın təşviqində daha da mühüm rol oynayırlar.

**Murad ƏLİYEV,**
**Pekin Pedaqoji Universitetinin doktorantı**



# Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mingəçevirdə olub







Oktyabrın 10-da Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli Mingəçevir şəhərində olub.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstü ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Səfər çərçivəsində Mətin Kərimli Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılovla görüşərək fikir mübadiləsi aparıb.

Səfər zamanı Mərkəzi Aran Regional Təhsil İdarəsi, Mingəçevir şəhəri üzrə təhsil sektorunun tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin gənc müəllimləri ilə görüş keçirilib.

Görüşdə Mətin Kərimli regionda fəaliyyət göstərən müəllimlərin zəhmətini yüksək dəyərləndirib, şagirdlərin ideoloji maarifləndirilməsinə xüsusi diqqət ayrılmasının önəmindən danışıb. Aparat rəhbəri Zəfər tariximizin yaşadılması və gənc nəslə ötürülməsi istiqamətində müəllimlərin mühüm rola malik olduqlarını diqqətə çatdırıb.

Görüş zamanı şagirdlərin nailiyyətlərinin artırılması, müəllimlərin peşəkar inkişafı, həmçinin region təhsilinin inkişafı kimi məsələlərlə bağlı müəllimlərlə səmimi fikir mübadiləsi aparılıb.

Mətin Kərimli Mingəçevir şəhəri İ.Kişiyev adına 17 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılış mərasimində də iştirak edib.

Mərasimdə Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, Mərkəzi Aran Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov, Mingəçevir şəhəri üzrə təhsil sektorunun müdiri Sevinc Həsənova, rayon təhsil şöbəsinin əməkdaşları, məktəbin müəllim-şagird kollektivi və valideynlər iştirak ediblər.

Açılış mərasimində çıxış edən Mətin Kərimli Elm və Təhsil Nazirliyi tərəfindən əsaslı təmir olunan məktəbdə 1200 şagirdin yüksək keyfiyyətli təhsil alması üçün lazımi şərait yaradıldığını bildirib. Dövlətin xüsusi diqqət və qayğısı nəticəsində ölkəmizdə bütün təhsil ocaqlarının müasir infrastruktura malik şəkildə şagirdlərə xidmət göstərəcəyinə əminliyini bildirən Aparat rəhbəri şagirdlərin yaxşı təhsil almasında müəllim və valideyn rolunun vacibliyinə də toxunub.

Daha sonra çıxış edən Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov yeni məktəb binasının açılışı münasibətilə hər kəsi təbrik edib, uğurlar arzulayıb.

Sonra tədbir iştirakçıları təhsil ocağında yaradılan şəraitlə yaxından tanış olublar. Qeyd edilib ki, məktəb 1176 şagird yerlikdir. Məktəbdə 57 sinif otağı, 2 informatika kabineti, 2 idman zalı, 1akt zalı var. Hazırda təhsil ocağında 543 şagird təhsil alır. Məktəbdə tədrisi həyata keçirən müəllimlərin sayı 48, texniki işçilərin sayı 20 nəfərdir.

Bundan başqa, məktəbin müxtəlif yerli və beynəlxalq müsabiqələrdə uğur qazanmış şagirdləri ilə də görüş keçirilib, onlara uğurlar arzulanıb.

Səfər çərçivəsində Mingəçevir Dövlət Universitetini ziyarət edən Mətin Kərimli ali təhsil müəssisəsinin yeni kampusunun tikinti işləri, eləcə də universitetdə mövcud tədris şəraiti ilə tanış olub.

Tədris prosesini izləyən Mətin Kərimli tələbələrə gələcəkdə yüksəkixtisaslı mütəxəssis kimi formalaşmaq üçün tövsiyələrini verib. Mətin Kərimli əmək bazarının tələblərinə cavab verən bilik və bacarıqların qazanılmasının müasir təhsil sistemindəki önəmini vurğulayıb.

Universitetin pedaqoji heyəti ilə keçirilən görüşdə sözügedən ali təhsil müəssisəsinin regionun inkişafında mühüm rol oynadığı və bu təhsil ocağının yüksəkixtisaslı kadrların hazırlanması, elmi potensialın gücləndirilməsinə verdiyi töhfələr xüsusilə vurğulanıb. Mətin Kərimli universitetin gələcək inkişaf strategiyasına dair tövsiyələrini bölüşərək təhsilin davamlı inkişafı və tələbələrin dünya standartlarına uyğun mütəxəssislər kimi yetişməsi üçün fikirlərini diqqətə çatdırılıb.

Səfər çərçivəsində Mətin Kərimli həmçinin vətəndaşları qəbul edib, müraciətlərin operativ araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli ilə bağlı tapşırıqlar verib.

# Elm və Təhsil Nazirliyində daha bir təcrübə imkanı

## Mətin Kərimli: "Əlimizdən gələni edəcəyik ki, siz öyrənəsiniz"

**Elm və Təhsil Nazirliyi və Təhsilin İnkişafı Fondunun təşəbbüsü ilə həyata keçirilən II "Maarifçi" tələbə-məzun təcrübə proqramı oktyabrın 7-dən başladı. 3 ay davam edəcək proqram çərçivəsində seçilən iştirakçılar Elm və Təhsil Nazirliyi, həmçinin Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin müxtəlif struktur bölmələrində təcrübə keçəcəklər. İştirakçılar onlar üçün təşkil olunan təlimlərdən yararlanacaq və sosial bacarıqlarını inkişaf etdirəcəklər.**

**Qeyd edək ki, proqramın məqsədi tələbə və məzunlara təcrübə imkanı yaratmaq, onların bilik və bacarıqlarını artırmaq, nəzəri biliklərini real iş mühitində tətbiq etməklə gənclərə peşəkar vərdişlər qazandırmaqdır.**



### Proqrama qəbul bir mübarizə meydanıdır

Azərbaycan vətəndaşı olan, bakalavriat səviyyəsinin sonuncu kursunda və ya magistratura səviyyəsində təhsil alan tələbələr, eləcə də təhsilini son 3 il ərzində başa vuran məzunlar proqrama qəbul olunurlar. Namizədlərin müraciət etmələri üçün elektron ünvan yaradılır.

2000-dən artıq tələbə və məzunun qatıldığı II "Maarifçi" tələbə-məzun təcrübə proqramına qəbul test və müsahibə mərhələlərindən ibarət olub. Əvvəlcə onlayn qaydada test imtahanı təşkil edilib. 1613 nəfərin iştirak etdiyi həmin imtahanın 277 nəfər uğur qazananı olub. Növbəti seçim mərhələsi - müsahibənin nəticəsində 46 namizəd seçilsə də, cəmi 37 nəfər təcrübəyə başlamaq imkanı əldə edib.




### Ancaq əsl mübarizə hələ indi başlayır

Ötən həftə "Maarifçi" tələbə-məzun təcrübə proqramına II seçim turunda uğur qazanan həmin namizədlərlə görüş keçirilib. Proqram çərçivəsində Gəncə-Daşkəsən və Mil-Muğan regional təhsil idarələri, həmçinin Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində təcrübə keçəcək tələbə və məzunlar görüşə onlayn qaydada qatılıblar. Görüşdə I "Maarifçi" proqramının nazirlikdə işə başlayan uğurlu təcrübəçiləri də iştirak edib.

Onlara məlumat verilib ki, proqram çərçivəsində tələbə və məzunlar təcrübə keçməklə yanaşı, nazirliyin struktur bölmələrində həyata keçirilən layihə və proqramlarda, müxtəlif mövzular üzrə təlimlərdə, eləcə də təcrübəli rəhbər şəxslərlə mentorluq proseslərində iştirak imkanı qazanırlar.

Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli proqram iştirakçılarını salamlayaraq deyib ki, onlar burada həyat üçün vacib təcrübə qazanacaqlar. O, gənclərin təcrübə dövründə verəcəkləri töhfə ilə bütövlükdə ölkə təhsil sistemində dəyər yaratmış olacaqlarını qeyd edib. Proqrama yeni qəbul olunan namizədləri fəal olmağa çağıran Mətin Kərimli hər birinə uğurlar arzulayıb: "Əlimizdən gələni edəcəyik ki, siz öyrənəsiniz. Lakin bizim istəməyimiz kifayət etmir. Gərək siz də istəyəsiniz!".

### Müvəffəqiyyət sertifikatını kim alır?

Qeyd edək ki, proqramı uğurla başa vuranlara sonda müvəffəqiyyət sertifikatı təqdim ediləcək. Proqramda uğur isə 4 meyar əsasında qiymətləndiriləcək. Əsas və ən böyük mərhələ olan təcrübə dövrünü 3 ay ərzində mentorlar dəyərləndirəcək.

İkinci meyar təcrübəçinin təqdim etdiyi fərdi layihədir.

Davranış səriştələri xüsusi texnika vasitəsilə qiymətləndiriləcək və nəhayət, təcrübəçilər davamiyyətinə görə də dəyərləndiriləcəklər.

### Onlar ilk "Maarifçi"lərdir

Bu dəyərləndirmələrdən uğurla çıxanlardan biri Fidan Fərzəliyevadır. O, proqrama qoşulduğu həyəcanlı günlərdən danışıb: "Bu proqrama qoşulanda çox həyəcanlı idim. "Maarifçi" təcrübə proqramında keçirdiyim müddətdə mühüm təcrübələr qazandım və bu, nəinki təcrübə





dövründə, eyni zamanda sonrakı karyera yolunda da mənə çox dəstək oldu. Hazırda Elm və Təhsil Nazirliyində Vətəndaşlara xidmət və sənədlərlə iş şöbəsində mütəxəssis vəzifəsində çalışıram".

F.Fərzəliyeva II "Maarifçi"lərə hədəflərini düzgün müəyyənləşdirməyi tövsiyə edir: "I "Maarifçi" proqramının uğur qazanan təcrübəçilərini göz önündə canlandıraraq öz yolunuzu və hədəflərinizi düzgün müəyyənləşdirin. Unutmayın ki, dəqiq təyin olunmuş hədəflərə çatmaq daha asandır, nəinki qaranlıq yolda irəliləmək".

O, təcrübəçilərə 3 aylıq bu müddəti lazımınca dəyərləndirməyi tövsiyə edib.

I "Maarifçi" tələbə-məzun təqaüd proqramı çərçivəsində Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr və Kommunikasiya şöbəsində təcrübə keçən və uğur qazanaraq işə qəbul edilən Nurlan Əsədzadə də çox şey öyrəndiyini deyir: "Hər birinizə uğurlar arzulayıram və 3 ay müddətdən məharətlə istifadə edərək daha çox öyrənməyə çalışmağınızı tövsiyə edirəm".

Xatırladaq ki, "Maarifçi" tələbə-məzun təcrübə proqramı ötən ilin oktyabrından icra olunur.

Proqram çərçivəsində iştirakçılar Gəncə, Şamaxı, Sabirabad, Salyan, Şəmkir rayonlarında olublar. 2024-cü il iyul ayının 1-də başa çatan proqramın 24 iştirakçısı olub. Onlardan 12-si Elm və Təhsil Nazirliyinin strukturlarında işlə təmin olunub.

### II "Maarifçi"lər: "Seçim prosesinin özü belə zövq verdi"

Bəs yeni təcrübıçilər nə deyir? Görəsən, onlar qarşıdakı 3 aydan nə gözləyirlər?

Əlvan Mayılov ADA Universitetində "Diplomatiya və Beynəlxalq münasibətlər" ixtisası üzrə magistr təhsili alır. Tələbəlik dövründə bir çox dövlət və özəl müəssisədə təcrübə keçib. Xüsusən beynəlxalq münasibətlər sahəsində uğurlu təcrübələri var. Ötən yay Azərbaycanın Rumıniyadakı səfirliyində öz ixtisası üzrə təcrübə proqramına qatılıb. Milli Məclisdə maraqlı və zəngin təcrübə proqramından sonra Elm və Təhsil Nazirliyinin təşkil etdiyi "Maarifçi" tələbə-məzun təcrübə proqramına qoşulmağının səbəblərindən danışıb: "Elm və təhsil ölkəmiz üçün önəmli sahələrin siyahısında vacib yerdədir. Digər sahələrin inkişafı da elm və təhsildən keçir. Mən də bu sahədə müəyyən təcrübəyə ehtiyac duydum. Məhsuldar və perspektivli kadrlardan biri olmaq üçün bu təcrübənin mənim üçün önəmli olacağını düşünürəm".

Yeni "Maarifçi"lərdən biri də Əsmər Qarayevadır. O, Azərbacan Dövlət Neft və Sənaye Universitetinin "Beynəlxalq marketinqin idarə edilməsi" ixtisası üzrə IV kurs tələbəsidir. Bir neçə özəl şirkətdə təcrübə keçib, dövlət layihəsində də təcrübəsinin olması arzusu onu "Maarifçi" olmağa həvəsləndirib: "Öz bilik və bacarıqlarımı inkişaf etdirməyim üçün bu layihə çox böyük imkandır".

Bu imkandan yararlana bilmək üçün əvvəlcə araşdırıb: "I proqramın iştirakçılarından biri bizim universitetin məzunlarındandır. Əvvəlki "Maarifçi"lərin nailiyyətlərinə baxdım, necə qəbul olunduqlarını araşdırdım. Layihəyə uyğun olduğumu düşünərək müraciət etdim".

Əvvəllər müsahibələrə çox qatıldığı və təcrübə proqramlarında iştirak etdiyi üçün "Maarifçi" olmaq çətin olmayıb, ancaq ilk dəfə yaşadığı situasiyalar da yaranıb: "Daha fərqli idi, mənim üçün sahə üzrə suallar maraqlı oldu. Seçim prosesinin özü belə zövq verdi".

Tələbə-məzun təcrübə proqramından uğurla çıxarsa, özünü Elm və Təhsil Nazirliyinin hansı strukturunda gördüyünü də deyib: "İxtisasım "Marketinq" olduğu üçün düzgün təqdimat mənim üçün önəmlidir. Təhsilin düzgün təqdimatı və insanların maariflənməsində mənim rolum ola bilər".

**Ruhiyyə DAŞSALAHLI**

# Uşaq müdafiə sistemində ictimai birlik və təşkilatların iştirakçılığı artırılır



## Elm və Təhsil Nazirliyi ilə Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı birgə görüş keçirib

Bakı şəhəri 20 nömrəli tam orta məktəbdə Elm və Təhsil Nazirliyi ilə Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı arasında görüş keçirilib. Görüşün keçirilməsində məqsəd uşaq müdafiə sistemində ictimai birlik və təşkilatların iştirakçılığının artırılmasıdır.

Görüşdə Elm və Təhsil Nazirliyi Uşaqların Müdafiəsi İdarəsinin rəis müavini Günel Səfərova, Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Səbuhi Rzayev, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Hikmət Əlizadə və Şuranın üzvləri, QHT sədrləri və Azərbaycan Müəllimlər Assosiasiyasının nümayəndələri iştirak ediblər.

Uşaqların Müdafiəsi İdarəsinin rəis müavini Günel Səfərova Nazirliyin uşaq müdafiə siyasəti, uşaq müdafiə layihələri, "Məktəblinin dostu", şagird davranış qaydaları, sosial pedaqoqlar barədə məlumat verib. Günel Səfərova məktəblərdə uşaq müdafiə sisteminin qurulmasının önəmini diqqətə çatdırıb və bu istiqamətdə sosial pedaqoqlarla işə başlanıldığını qeyd edib. Günel Səfərova uşaq hüquqlarını əhatə edən çətir təşkilata ehtiyac olduğunu vurğulayıb. Gənclərlə işləyən "Bir Könüllü" təşkilatı, Gənc Müəllimlər Assosiasiyası kimi fəal təşkilatlara ehtiyac olduğunu diqqətə çatdırıb.

Elm və Təhsil Nazirliyinin şöbə müdiri Səbuhi Rzayev məktəblərlə ictimai təşkilatların münasibətlərinə toxunaraq düzgün koordinasiya ilə bu əməkdaşlıqdan yaxşı nəticələr əldə edilə biləcəyini qeyd edib.

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, Müasir Psixoloji Dəstək İctimai Birliyinin nümayəndəsi Hikmət Əlizadə sosial pedaqoqlarla bağlı nazirliyin fəaliyyətini müsbət dəyərləndirib. Hikmət Əlizadə qeyd edib ki, sosial pedaqoqlar şagirdlərlə yanaşı, valideynlərlə də iş aparmalıdır.

Görüşdə Ümidli Gələcək Sosial Təşəbbüslər İctimai Birliyi, Azərbaycan Uşaq Qaynar Xəttinin rəhbəri Kəmalə Aşumova, Uşaq Fondunun İdarə Heyətinin rəhbəri Zəhra Bədəlbəyli, "Yeni Həyat" Humanitar və Sosial Dayaq İctimai Birliyinin sədri Nailə İsmayılova, Ekoloji Maarifçilik və Monitorinq İctimai Birliyinin sədri Qəmzə Yusubova da iştirak edib.

Görüşdə onlayn əməkdaşlıq qrupunun təşkilinə qərar verilib. Növbəti görüşün isə oktyabrın ikinci yarısında keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, 2003-cü ildən özündə çoxsaylı milli QHT-ni birləşdirən Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı bir çox dövlət və qeyri-hökumət təşkilatları, biznes qurumları və fərdlərlə əməkdaşlıq edərək Azərbaycanda uşaq hüquqlarının müdafiəsi və təbliği sahəsində çoxsaylı layihə və proqramlar həyata keçirir.

# Dünyanın ən yaxşı universitetlərinin fənn reytinqlərində Azərbaycan universitetlərinin sayı 3-ə çatıb







**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) "Neft və qaz sahəsində mühəndislik ixtisasları" üzrə dünyanın ən yaxşı 150 universiteti siyahısına daxil olunub. Sözügedən siyahını dünyanın nüfuzlu reytinq agentliklərindən biri olan "QS Quacquarelli Symonds" dərc edib. İştirakçı universitetlərin yenilənmiş fənn reytinqi siyahısında ADNSU 101-150 aralığında yer alır.**

Beləliklə, "QS 2024 sahələr üzrə dünyanın ən yaxşı universitetlərinin reytinq siyahısı"nda Azərbaycan 4 istiqamət üzrə 3 ali təhsil müəssisəsi ilə təmsil olunur. Azərbaycan Dövlət Neft və Sənaye Universitetindən başqa, bu reytinqlərə Azərbaycan Dillər Universiteti və Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) də daxildir.

Qeyd edək ki, QS dünyanın ən yaxşı universitetlərinin fənn reytinqlərini hazırlayarkən 5 əsas göstəricidən istifadə edir: akademik reputasiya, işəgötürənlər arasında reputasiya, bir nəşrə görə sitatların sayı, "Hirsch" indeksi və beynəlxalq elmi əməkdaşlıq indeksi. Bu reytinqlər 95 ölkə və ərazidə 1500 universitetdə təhsil alan tələbələr üçün 16400-dən çox təhsil proqramını müqayisə edən müstəqil analizi təqdim edir. Reytinq 55 fənn və 5 geniş fənn kateqoriyası üzrə ölçülüb.

# Universitetlərimiz dünyanın ən yaxşıları arasında

Əvvəli səh. 1

**Qeyd edək ki, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə "Times Higher Education" Beynəlxalq Reytinq Agentliyi arasında ölkədə ali təhsilin rəqabət qabiliyyətinin artırılması və qabaqcıl tədqiqat universitetlərinin yaradılması istiqamətində may ayından etibarən strateji tərəfdaşlıq davam edir. Bu tərəfdaşlığın mühüm hədəflərindən biri də ali təhsil müəssisələrimizin qlobal reytinqlər vasitəsilə beynəlxalq tanınmasının artırılmasına nail olmaqdır. Bu hədəfə çatmaq üçün ötən müddət ərzində ali təhsil müəssisələrimiz həm tədqiqatçılıq, publikasiya fəaliyyətlərini, həm də innovativ inkişafa öz töhfələrini verməkdədir.**

**Elmi publikasiya aktivliyində, xüsusən Q1, Q2 kvartillərdə irəliləyişlər, keyfiyyətli məqalələrin sayının artması BDU və ADNSU-nun adıçəkilən reytinq sıralamasında görünərliyini artırıb.**

**THE-nin qlobal məsələlər üzrə baş direktoru Fil Bati vurğulayıb ki, Azərbaycan universitetləri qlobal reytinqdə əhəmiyyətli irəliləyişlər əldə ediblər ki, bu da bölgənin yeni qlobal tədqiqat, innovasiya və istedad mərkəzi kimi formalaşmasına kömək edir. "Azərbaycan reytinqdə öz nümayəndəliyini iki dəfə artırıb, Asiya Universiteti reytinqdə 1501+ qrupunda debüt edib. Bakı Dövlət Universiteti isə eyni qrupda daha yüksək bal və daha yüksək faiz reytinqlə möhkəm yer tutub".**








Qeyd edək ki, BDU təbiət elmləri (fizika, kimya, geologiya, astronomiya, riyaziyyat), eləcə də mühəndislik elmləri (kimya mühəndisliyi, geoloji mühəndislik, hidrogeoloji mühəndislik, geofizika mühəndisliyi və s.) üzrə THE-nin "İxtisasların reytinqi" (Subject Rankings 2024) sıralamasında yer almış yeganə ali təhsil müəssisəsidir.

ADNSU reytinqdə 1501+ yerdə qərarlaşıb. ADNSU milli səviyyədə yüksək reytinq əldə edib (=1/2), həmçinin "Tədris" və "Beynəlxalq perspektiv" kateqoriyaları üzrə güclü nəticələr göstərib. Universitet tədris pilləsindəki göstəricisi üzrə 1399, beynəlxalq perspektiv kateqoriyası üzrə isə 1505-ci yeri tutub. Bu reytinq ADNSU-nun qlobal akademik mövqeyini gücləndirmək istiqamətində davam edən səylərinin nəticəsi kimi qiymətləndirilir.




THE-nin qlobal məsələlər üzrə baş direktoru Fil Bati qeyd edir: "Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dünya universitetlərinin ən böyük və əhatəli qlobal reytinqinə daxil olmasını görmək çox gözəldir. Azərbaycan sosial təsirə malik dünya səviyyəli universitetlər yaratmaq məqsədilə ali təhsilin inkişafı üçün çox ciddi strateji hədəflər müəyyən edib. Ümid edirik ki, bu qətiyyət ölkənin ali təhsil müəssisələrinin "THE dünyanın ən yaxşı universitetləri"nin reytinqi və "THE Impact" reytinqində sayının artmasına və mövqelərinin güclənməsinə təkan verəcək".

### Qiymətləndirmədə yeni yanaşma

THE builki tədqiqatında ali təhsil müəssisələrinin fəaliyyətinin ən əhatəli qiymətləndirilməsini təmin etmək üçün bütün dünyada kompleks qiymətləndirmə aləti hesab olunan WUR 3.0-dən istifadə edib. Bu, metodologiya tədris, tədqiqat mühiti, tədqiqat keyfiyyəti, sənaye ilə qarşılıqlı əlaqə və beynəlxalq perspektivlər kimi beş əsas sahə üzrə qurumları qiymətləndirmək üçün diqqətlə təsdiqlənmiş 18 göstəricini əhatə edir.

Sıralamaya 2092 reytinqli universitet daxildir. Ötən illə müqayisədə 185 yenilik qeydə alınıb. Ümumilikdə, THE-yə 472.694 universitetdən 2860 məlumat daxil olub.

Tələbələr, müəllimlər, elm adamları, hökumətlər və sənaye mütəxəssisləri tərəfindən etibar edilən metodologiya elmi məqalələrdən 157 milyon sitata, 18 milyon elmi nəşrə dair məlumatlara əsaslanır.

### Reytinqin nəticələri

Bu il Oxford Universitetinin 9 illik şərtsiz liderliyi də daxil olmaqla bəzi maraqlı tendensiyalar, xüsusən də Britaniya universitetlərinin nüfuz göstəricisinin azalması müşahidə olunur.

Builki reytinqdə 115 ölkə və regiondan 2000-dən çox universitet yer alıb. Reytinqlər tədris, tədqiqat mühiti, tədqiqat keyfiyyəti, beynəlxalq dünyagörüşü və sənaye daxil olmaqla beş kateqoriya üzrə 18 performans göstəricisi əsasında tərtib edilib.

### Əsas nəticələr:

* 2025-ci il reytinqi dəyişən qlobal mənzərəni nümayiş etdirir, bir çox Avropa universiteti reytinqdə geriləyib, Asiya universitetləri isə qlobal mövqelərini yaxşılaşdırmağa davam edir.

* Türkiyənin reytinqdə təmsilçiliyi sürətlə artıb - 2021-ci ildəki 43-dən 2024-cü ildə 91-ə yüksəlib və Çinə yaxınlaşıb.

* Oksford ardıcıl doqquzuncu ildir ki, dünyanın ən yüksək reytinqli universiteti kimi öz mövqeyini qoruyub saxlayır.

* ABŞ, Böyük Britaniya qlobal reytinqdə ən yüksək yerləri tutan ölkələrdir.

Reytinqin ilk 10-luğu ABŞ və Böyük Britaniya universitetlərindən təşkil olunub.

* Dünyanın ilk 100-lüyünə daxil olan 12 Britaniya universiteti arasında müəllimlik və tədqiqat nüfuzuna görə orta bal ikinci ildir ki, ardıcıl olaraq aşağı düşür.

* Son iki ildə THE-nin sorğusunda 93 mindən çox alim iştirak edib ki, bu da 2019 və 2020-ci illərə nisbətən 22 min nəfər çoxdur. Britaniya universitetləri 2016-cı ildə keçirilən sorğudakı (tədris və tədqiqat üçün birlikdə) 19 faizlə müqayisədə bu il alimlərdən 15 faiz səs alıb. ABŞ-də daha da kəskin azalma müşahidə edilib - alimlərin səsi 47 faizdən 32 faizə düşüb.

* Böyük Britaniya universitetlərinin tədqiqatçılıq nüfuzu da aşağı düşüb, bu qismən elmi-tədqiqatlara ayrılan vəsaitlərin azaldılması, əcnəbi tələbə sayının azalması ilə izah olunur.

* ABŞ-nin top-200-lükdə təmsil olunan universitetlərinin sayı 2021-ci ildəki 59-dan 55-ə, Böyük Britaniyada 29-dan 25-ə, Avstraliyada 12-dən 10-a, Almaniyada isə 21-dən 20-yə enib. Çin və Yaponiya bu dövrdə ilk 200-də təmsilçiliyini müvafiq olaraq 6 və 3-ə çatdırıblar. İndi top-200-lükdə Çinin 13, Yaponiyanın isə 5 universiteti var.

* Massaçusets Texnologiya İnstitutu (MIT) ötənilki 3-cü yerdən 2-ci yerə yüksəlib. Daha sonrakı yerləri Harvard və Prinston universitetləri tutur.

* Kembric Universiteti əvvəlki illə müqayisədə dəyişməyərək beşinci yerdə qalıb, Stenford Universiteti isə ikinci yerdən altıncı yerə düşüb.

* Cədvəldə ən sürətlə irəliləyən universitetlər Asiyanın payına düşür. Ardıcıl ikinci ildir ki, Asiya THE reytinqində ən çox təmsil olunan qitə olub.

* Çin qlobal tədqiqat təsirini daha da artıraraq ilk 10-luğa yaxınlaşır.

* Bəzi Avropa universitetləri davamlı enişlə üzləşib, Asiya, xüsusən də Çin, Yaponiya və Cənubi Koreya universitetləri tərəqqi əldə ediblər.

* Fransa, Hollandiya və İsveçrə kimi ölkələrdən olan universitetlərin reytinqdə geriləməsi müşahidə edilir. Məsələn, Hollandiyanın 12 reytinqli universitetindən səkkizi geriləyib, Delft Texnologiya Universiteti isə qlobal miqyasda 56-cı mövqeyə düşüb.

* Fransanın 50 universitetindən 19-u reytinqdə geriləyib, 10-u isə ən pis nəticə göstərib.

* Münhen Texniki Universitetinin 26-cı yerə yüksəlməsi Almaniya universitetləri üçün reytinqdə ən yüksək mövqedir.

* Üç yeni ölkə - Braziliya, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri - ali təhsildə inkişaf etməkdə olan bazarların yüksəlişini vurğulayaraq, ilk 200-lüyə qoşulur.

* Rusiyanın heç bir universiteti THE-nin top-100-lüyündə yer ala bilməyib. Hətta M.V.Lomonosov adına Moskva Dövlət Universiteti ilk 100 universitet sırasını tərk edib. Yeni reytinqdə 12 pillə geriləyərək 107-ci yeri tutub. Digər ali təhsil müəssisələrindən Moskva Fizika Texnika İnstitutu, Moskva Nüvə Tədqiqatları İnstitutu, Sankt-Peterburq Dövlət Universiteti öz mövqelərini pisləşdirib. Digər ali məktəblərin də reytinqində geriləmələr var.

* Bu il reytinqə ilk dəfə yeddi ölkə daxil olub: Bəhreyn, Konqo Demokratik Respublikası, Monqolustan, Paraqvay, Ruanda, Suriya və Özbəkistan.

Qeyd edək ki, THE-nin son qlobal reytinqi dünyanın dəyişən ali təhsil mənzərəsində müşahidə olunan son tendensiyaları əks etdirir.

**Oruc MUSTAFAYEV**

# Türk dillərində cins kateqoriyasının olmamasının düşüncə və cəmiyyətə təsirləri

**Dil ünsiyyət vasitəsi olmaqla yanaşı, düşüncə tərzimizi formalaşdıran, mədəniyyətimizi əks etdirən və cəmiyyətimizin əsas sütunlarından biridir. Dillərin qrammatik quruluşu və xüsusiyyətləri, o dildə danışan insanların dünyagörüşünə və sosial normalarına təsir göstərir. Bu kontekstdə, türk dillərinin ən diqqətçəkən xüsusiyyətlərindən biri olan cins kateqoriyasının olmaması, linqvistik cəhətdən maraqlı olmaqla yanaşı, sosial və mədəni baxımdan da əhəmiyyətli nəticələrə səbəb olur.**



Bu məqalədə türk dillərində cins kateqoriyasının olmamasının dil, düşüncə və cəmiyyət üzərindəki təsirlərini araşdıracağıq. Xüsusilə də bu xüsusiyyətin gender bərabərliyi anlayışının dildə və düşüncədə daha təbii şəkildə əks olunmasına necə səbəb olduğunu, müasir dünyada gender məsələlərinə həssas yanaşan cəmiyyətlərdə türkdilli insanların adaptasiyasını necə asanlaşdırdığını və türk dillərində insan və cəmiyyət haqqında daha neytral və bərabərhüquqlu düşüncə tərzinin formalaşmasına necə kömək etdiyini müzakirə edəcəyik.

Türk dilləri, Altay dil ailəsinə aid olan və geniş bir coğrafiyada danışılan dil qrupudur. Bu dil ailəsinə Türkiyə türkcəsi, Azərbaycan türkcəsi, özbək, qazax, qırğız, tatar və digər dillər daxildir. Türk dillərinin ən əhəmiyyətli xüsusiyyətlərindən biri, cins kateqoriyasının olmamasıdır.

Cins kateqoriyası, bir çox dünya dillərində mövcud olan və adları, əvəzlikləri və bəzən də felləri müəyyən cins qruplarına (kişi cinsi, qadın cinsi, orta cins və s.) ayıran qrammatik bir kateqoriyadır. Məsələn, alman dilində "der" (kişi cinsi), "die" (qadın cinsi) və "das" (orta cins) artiklları vardır. İngilis dilində isə şəxs əvəzliklərində "he" (o, kişi), "she" (o, qadın) və "it" (o, cansız əşyalar üçün) kimi fərqli formalar mövcuddur. Türk dillərində isə, belə bir ayrım yoxdur. Məsələn, Azərbaycan türkcəsində "o" əvəzliyi həm kişi, həm qadın, həm də cansız əşyalar üçün istifadə olunur. Bu xüsusiyyət, türk dillərini bir çox Hind-Avropa dillərindən fərqləndirir və dil istifadəçilərinə daha neytral bir ifadə imkanı verir.

*Cins kateqoriyasının olmamasının dilə və düşüncəyə təsiri.* Dilçilik sahəsində aparılan tədqiqatlar göstərir ki, dilin qrammatik quruluşu insanların düşüncə tərzinə və dünyagörüşünə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan, türk dillərində cins kateqoriyasının olmaması dil istifadəçilərinin gender və cinsiyyət haqqında düşüncələrini formalaşdırmaqda mühüm rol oynayır. Bəs bu hansı formalarda təzahür edir?

**1. Neytral ifadə tərzi:** Cins kateqoriyasının olmaması türk dillərində danışanların insanlar və əşyalar haqqında danışarkən daha neytral bir dil istifadə etməsinə imkan verir. Bu, gender stereotiplərinin dildə təkrarlanmasının qarşısını alır və daha inklüziv bir ünsiyyət mühiti yaradır.

**2. Cinsi ayrı-seçkiliyin azalması:** Dildə cins kateqoriyasının olmaması insanların cinsiyyətə əsaslanan ayrıseçkilik etmə ehtimalını azaldır. Məsələn, peşə adlarında və vəzifə titullarında cins fərqi olmadığı üçün, "həkim", "müəllim", "mühəndis" kimi sözlər həm kişilər, həm də qadınlar üçün eyni şəkildə istifadə olunur.

**3. Gender rollarının yumşalması:** Cins kateqoriyasının olmaması, ənənəvi gender rollarının dildə və düşüncədə daha az vurğulanmasına səbəb olur. Bu, cəmiyyətdə gender rollarının daha çevik və dəyişkən ola bilməsinə imkan yaradır.

**4. Düşüncədə bərabərlik:** Dildə cins fərqlərinin olmaması, insanların bərabərlik anlayışını daha təbii şəkildə mənimsəməsinə kömək edir. Bu, cəmiyyətdə gender bərabərliyi ideyasının daha asanlıqla qəbul edilməsinə və yayılmasına səbəb ola bilər.

**5. Uşaqların tərbiyəsində bərabərlik:** Uşaqlar dili öyrənərkən, cins fərqləri ilə qarşılaşmırlar. Bu, onların dünyagörüşünün daha bərabər və ayrı-seçkilikdən uzaq formalaşmasına kömək edir.

*Müasir dünyada adaptasiya:* Türkdilli insanların üstünlükləri. Müasir dünyada gender məsələlərinə həssaslıq getdikcə artır və bir çox cəmiyyət bu istiqamətdə dəyişikliklər edir. Bu kontekstdə türkdilli insanların öz dillərinin xüsusiyyətləri sayəsində müəyyən üstünlüklərə sahib olduğunu söyləmək olar:

- **Daha asan adaptasiya:** Türkdilli insanlar, gender bərabərliyinə həssas olan cəmiyyətlərdə daha asan adaptasiya ola bilərlər. Çünki onların dil və düşüncə strukturları artıq bu anlayışa uyğundur.

- **İş mühitində üstünlük:** Beynəlxalq şirkətlərdə və çoxmədəniyyətli iş mühitlərində gender həssaslığı getdikcə daha çox əhəmiyyət qazanır. Türkdilli insanlar öz dillərinin xüsusiyyətləri sayəsində bu mühitlərə daha asan uyğunlaşa bilərlər.

- **Mədəniyyətlərarası ünsiyyətdə üstünlük:** Türkdilli insanlar fərqli mədəniyyətlərdən olan insanlarla ünsiyyət qurarkən, gender məsələlərində daha həssas və inklüziv ola bilərlər və s.

Türk dillərində neytral və bərabərhüquqlu düşüncə tərzinin formalaşması. Türk dillərində cins kateqoriyasının olmaması insan və cəmiyyət haqqında daha neytral və bərabərhüquqlu bir düşüncə tərzinin yaranmasına kömək edir:

1. **Fərdlərin qiymətləndirilməsində neytralıq:** İnsanlar haqqında danışarkən və ya düşünərkən, cinsiyyət avtomatik olaraq vurğulanmır. Bu, fərdlərin cinsiyyətə görə deyil, öz xüsusiyyətləri və bacarıqları əsasında qiymətləndirilməsinə imkan yaradır.

2. **Liderlik və avtoritet anlayışında bərabərlik:** Rəhbər vəzifələr və avtoritet mövqeləri haqqında danışarkən cins fərqi olmadığı üçün bu mövqelərin həm kişilər, həm də qadınlar tərəfindən tutula biləcəyi fikri daha təbii qəbul edilir.

3. **Ailə və cəmiyyət rollarında çeviklik:** Ailə və cəmiyyət daxilindəki rollar haqqında danışarkən cins fərqinin olmaması bu rolların daha çevik və dəyişkən ola biləcəyi fikrini təşviq edir.

4. **Emosional ifadədə azadlıq:** Dildə emosiyaların ifadəsində cins fərqinin olmaması, insanların öz hisslərini daha sərbəst ifadə etməsinə imkan verir.

Türk dillərində cins kateqoriyasının olmaması bir çox üstünlüklərə malik olsa da, müəyyən çətinliklər də yaradır:

- **Tərcümə problemləri:** Cins kateqoriyası olan dillərdən tərcümə edərkən, bəzən məna itkiləri və ya yanlış anlaşılmalar ola bilər. Bu problemi həll etmək üçün kontekstə uyğun tərcümə metodları və açıqlamalar istifadə edilə bilər.

- **Beynəlxalq kommunikasiyada çətinliklər:** Türkdilli insanlar cins kateqoriyası olan dilləri öyrənərkən və ya istifadə edərkən çətinliklərlə qarşılaşa bilərlər. Bu çətinliyi aradan qaldırmaq üçün xarici dil tədrisi zamanı cins kateqoriyasına xüsusi diqqət yetirilməlidir.

- **Bəzi hallarda spesifikliyin olmaması:** Nadir hallarda cinsiyyəti vurğulamaq lazım olduqda, türk dillərində bunu etmək üçün əlavə sözlər və ya ifadələr istifadə etmək lazım gələ bilər. Bu, dilin təbiiliyini pozmamaq şərtilə, kontekstə uyğun şəkildə edilməlidir.

Qarşılaşan çətinliklərə rəğmən türk dillərində cins kateqoriyasının olmaması bu dillərdə danışan cəmiyyətlər üçün unikal bir xüsusiyyət və əhəmiyyətli bir üstünlükdür. Bu xüsusiyyət dilin istifadəsindən tutmuş düşüncə tərzinin formalaşmasına qədər geniş bir spektrdə təsir göstərir.

Gender bərabərliyi anlayışının dildə və düşüncədə daha təbii şəkildə əks olunması, müasir dünyada gender məsələlərinə həssas yanaşan cəmiyyətlərə daha asan adaptasiya və daha neytral və bərabərhüquqlu düşüncə tərzinin formalaşması - bütün bunlar türk dillərinin bu xüsusiyyətinin nəticələridir.

**Nəticə olaraq, türk dillərində cins kateqoriyasının olmaması, bu dillərdə danışan cəmiyyətlər üçün həm bir üstünlük, həm də məsuliyyətdir. Bu xüsusiyyətin üstünlüklərindən maksimum faydalanmaq türkdilli cəmiyyətlərin gələcək inkişafı və qlobal inteqrasiyası üçün böyük əhəmiyyət daşıyır.**

**Günay ƏKBƏROVA,**
**Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın katibi,**
**Zəngilan rayonu 33 nömrəli tam orta məktəbin ingilis dili müəllimi**

# MƏNİM SİNİF RƏHBƏRİM

## ARAŞDIRMA

**Bu dəfə oxucularımıza sinif rəhbərləri, onların təhsilimizdəki rolundan danışmaq istəyirəm. Mövzu ilə bağlı fikrimdə bir neçə vacib suallar var idi. Sinif rəhbərlərinin vəzifələri, müəllim-şagird-valideyn üşbucağındakı rolu, bugünkü cəmiyyətdə məsuliyyətli vəzifənin öhdəsindən necə gəldikləri məni çox düşündürürdü. Axı bu günün şagirdi də, valideyni də ötən onilliklərdəkindən daha fərqlidir. Bəs bu prosesdə sinif rəhbərləri nə ilə qarşılaşır? Onların çətinlikləri nələrdir?**




Suallarıma cavab tapmaq və proseslə daha yaxından tanış olmaq məqsədilə paytaxtın Nizami və Xətai rayonlarında yerləşən məktəblərində oldum. Məktəb direktorları, müəllimlər, valideyn və şagirdlərlə görüşüb, mövzu ətrafında fikir mübadiləsi apardıq.

Direktorlar bizimlə söhbətlərində bildirdilər ki, bu gün sinif rəhbərləri ağır və məsuliyyətli bir işin öhdəsindən gəlməyə çalışırlar. İşini sevən, bu vəzifəni layiqincə yerinə yetirən müəllimlərimizin çox olduğunu, sinif rəhbəri təyin edərkən də, məhz belə müəllimlərə üstünlük verildiyini diqqətə çatdırdılar.

Şagirdlərin də sinif rəhbərləri haqqında fikirlərini öyrəndik. Mənim üçün maraqlı idi ki, şagirdlər sinif rəhbərlərini necə görmək istəyirlər. Söhbət etdiyimiz şagirdlərin demək olar ki, hər biri sinif rəhbərlərinin onların məktəbdə bir valideyn funksiyasını daşıdığını, hər bir məsələdə birinci onlara sığındıqlarını, güvəndiklərini yəqin etdim. Şagirdlərlə söhbətimizdən açıq-aydın hiss olunurdu ki, onların sinif rəhbərinin xüsusi qayğısına ehtiyacları var. Təhsilalanlar sinif rəhbərləri ilə bağlı xatirələri, aralarındakı dialoqları, ümumiyyətlə, baş verənləri danışarkən bunu biruzə verirdilər. Məsələn, bəziləri ixtisas seçimində sinif rəhbərinin tövsiyyəsinə qulaq asdığını, bəziləri isə məktəbdə müxtəlif problemləri olduğu zaman ona necə kömək edildiyindən danışırdı. Onları dinlədikcə sinif rəhbəri vəzifəsinin nə qədər əhəmiyyətli olduğu bir daha sübut olunurdu.

Valideynlərlə söhbətimiz də çox maraqlı alındı. Açığını deyim ki, valideynlərin əksəriyyəti digər valideynləri məsuliyyətsizlikdə, məktəbə və övladlarına laqeydlikdə günahlandırırdılar. Sinif rəhbəri ilə əlaqə yaratmayan, hər bir mübahisəli vəziyyətlərdə haqlı-haqsız məktəbi və müəllimləri qınaq obyektinə tutan valideynlərin də olduğunu deyirdilər. Təhsilimizdəki bəzi çatışmazlıqların olduğunu da deyən valideynlər, sinif rəhbərlərinin hər birinin fərqli yanaşması olduğunu da söylədilər.

Söhbət etdiyim valideynlərin dilindən bir sinif rəhbərinin adı heç düşmürdü. Onun necə mükəmməl iş qurduğundan, təhsil üçbucağında bir körpü yaratdığından ağızdolusu danışırdılar. Doğrusu, valideynlərin həmin sinif rəhbəri haqqında müsbət fikirləri məndə həmin müəllimlə görüşmək, söhbət etmək həvəsi yaratdı. Onunla söhbətdən sonra isə valideynlərin nə qədər haqlı olduğunu, mənim isə mövzumun qəhrəmanını tapdığımı düşündüm.

Sinif rəhbərləri ilə söhbət mövzumun ən əsas hissələrindən biri idi. Məktəblərdə təxminən 5-6 müəllimlə söhbətləşdik. Danışdığım sinif rəhbərlərinin arasında 35-40 illik pedaqoji təcrübəsi olan müəllimlər də var idi. Onlar əvvəlki dövrlərlə müqayisədə valideynlərin əksəriyyətinin aqressiv olduqlarını, övladlarının təlim-tərbiyə prosesində çatışmazlıqlarını qəbul etmədiklərini günün ən aktual problemlərindən olduğunu dedilər. Lakin buna baxmayaraq, övladlarının təhsili, tərbiyəsi ilə maraqlanan, məsələlərə obyektiv yanaşan valideynlərin çox olduğunu xüsusi qeyd etdilər. Sinif rəhbəri kimi vəzifələrinin məsuliyyətli olduğunu bildirdilər. Sinif rəhbərinin şagirdlər arasında ayrı-seçkilik qoymamağı, qərar verərkən ədalətli olmağı, hər bir şagirdə fərdi yanaşmağın vacibliyini vurğuladılar. Sinif jurnalları, şagird davamiyyəti, təşkilatı və sair məsələlərdən söhbət açdılar.

Əlqərəz, gördüklərim və eşitdiklərimdən belə qənaətə gəldim ki, üzərinə böyük məsuliyyət götürən sinif rəhbəri 25-30 şagirdin bir vətəndaş kimi formalaşmasında olduqca əhəmiyyətli rol oynayır. Nəzərə alsaq ki, həmin müəllim müxtəlif illərdə bir neçə sinfə rəhbərlik edib və bu say yüzlərlə şagirdi əhatə edir. Ona görə də düşünürəm ki, sinif rəhbəri öz davranışı, yanaşması, ədalətliliyi və dürüstlüyü ilə seçilməli, şagirdlərə örnək olmalıdır. Yuxarıda qeyd etdiyim mövzumun qəhrəmanı da, məhz belə sinif rəhbərlərindəndir. O, həm şagirdlərin, həm valideynlərin, həm də məktəb rəhbərinin rəğbətini, hörmətini qazanıb.

Məsələnin ən vacib tərəflərindən biri isə valideynlərdir. Düşünürəm ki, bu çətin və məsuliyyətli işdə valideynlər məktəbə, eyni zamanda sinif rəhbərlərinə dəstək olmalıdır. Bəzi valideynlər məsuliyyəti təkcə məktəbin, müəllimin üzərinə atmaq əvəzinə övladlarına daha çox nəzarət etməlidir.

İstər müəllimlərlə, istərsə də valideynlərlə söhbətlərdən bir daha məlum oldu ki, müəllim-valideyn işbirliyi şagirdlərin bir vətəndaş kimi formalaşmasında böyük əhəmiyyət kəsb edir.

**Niyazi RƏHİMOV**

# 2024-cü ilin Nobel laureatları




## Onları tanıyaq

**Oktyabrın 7-də İsveçdə dünyanın elmi ictimaiyyətinin diqqətlə izlədiyi "Nobel həftəsi" başlayıb. Hər il olduğu kimi, həmin gün ilk olaraq İsveç Karolinsk İnstitutu tərəfindən 2024-cü il üzrə fiziologiya və tibb üzrə Nobel mükafatı laureatlarının adları açıqlanıb. Karolinsk İnstitutundakı Nobel Assambleyasının qərarı ilə fiziologiya və tibb üzrə Nobel mükafatına "mikroRNT-nin kəşfinə və onun transkripsiyadan sonrakı gen tənzimlənməsindəki roluna görə" amerikalı alimlər - Massaçusets Texnologiya Universitetinin Tibb Məktəbinin professoru Viktor Ambros və Massaçusets Baş Hospitalının Hovard Tibb Məktəbinin tədqiqatçısı Qeri Ruvkun layiq görülüblər.**

**Nobel Mükafatları Komitəsinin qərarında qeyd olunur: "Viktor Ambros və Qeri Ruvkun müxtəlif hüceyrə növlərinin necə inkişaf etməsi ilə maraqlanıblar. Onlar genlərin tənzimlənməsində mühüm rol oynayan kiçik RNT molekullarının yeni sinfi olan mikroRNT-ni kəşf ediblər. Onların təməlqoyucu kəşfi çoxhüceyrəli orqanizmlər, o cümlədən insanlar üçün vacib olan gen tənzimlənməsinin tamamilə yeni prinsipini ortaya qoyub. İndi məlumdur ki, insan genomu mindən çox mikroRNT kodlayır. Onların inanılmaz kəşfi gen tənzimlənməsi üçün tamamilə yeni bir ölçü ortaya qoyub. Bu kəşf mikroRNA-ların orqanizmlərin necə inkişaf etməsi və fəaliyyət göstərməsi üçün əsaslı əhəmiyyət kəsb etdiyini sübut edir".**

### Fiziologiya və tibb üzrə laureatlar

Viktor Ambros 1953-cü il dekabrın 1-də ABŞ-nin Nyu-Hempşir ştatının Hannover şəhərində anadan olub. Tədqiqatları əsasən molekulyar biologiya və genetikaya yönəlib. Bir çox nüfuzlu mükafatların sahibidir. 1975-ci ildə Massaçusets Texnologiya İnstitutunda bakalavr, 1979-cu ildə doktorluq dərəcəsi alıb. 1984-1992-ci illərdə Harvard Universitetində, 1992-2007-ci illərdə Dartmut Kollecində çalışıb. MikroRNA tədqiqatçısı kimi şöhrət qazanıb. Bir çox tədqiqatlarını Qeri Ruvkun ilə birlikdə aparıb. 71 yaşlı alim hazırda Massaçusets Tibb Məktəbində, Vuster, MA Universitetində Silverman təbiət elmləri üzrə professordur. ABŞ Milli Elmlər Akademiyasının və Amerika İncəsənət və Elmlər Akademiyasının üzvüdür.

Qeri Ruvkun 1952-ci ildə ABŞ-nin Kaliforniya ştatının Berkli şəhərində anadan olub. 1982-ci ildə Harvard Universitetində fəlsəfə doktoru dərəcəsi alıb. 1982-1985-ci illərdə Massaçusets Texnologiya İnstitutunda postdoktorantura üzrə tədqiqatçı kimi çalışıb. 1985-ci ildə Massaçusets Ümumi Xəstəxanasında və Harvard Tibb Məktəbində baş tədqiqatçı olub və hazırda genetika professorudur. 72 yaşlı alim əsasən molekulyar biologiya ilə məşğul olur.

ABŞ Milli Elmlər Akademiyasının, Tibb Akademiyasının və Amerika Fəlsəfə Cəmiyyətinin üzvüdür.

### Fizika üzrə laureatlar

Oktyabrın 8-də Nobel Mükafatları Komitəsi fizika üzrə 2024-cü ilin Nobel mükafatı laureatlarının adlarını açıqlayıb. Komitənin qərarı ilə yüksək elmi mükafata amerikalı, Prinston Universitetinin professoru Con Hopfild və kanadalı, Toronto Universitetinin professoru Cefri Hinton "süni neyron şəbəkələri ilə maşın öyrənməsinə imkan verən təməl kəşflərə və ixtiralara görə" layiq görülüblər.

Komitənin açıqlamasında qeyd olunur ki, Con Hopfild məlumatı saxlaya və yenidənqura bilən struktur yaradıb, C.Hinton isə verilənlərdəki xassələri müstəqil olaraq kəşf edə bilən və hazırda istifadə olunan böyük neyron şəbəkələri üçün vacib hala gələn bir üsul icad edib.

"Onlar fizikadan istifadə edərək süni neyron şəbəkələrini öyrəndirdilər. Fizika üzrə builki iki Nobel mükafatçısı bugünkü güclü maşın öyrənməsinin əsasını təşkil edən metodları inkişaf etdirmək üçün fiziki alətlərdən istifadə ediblər. Con Hopfild verilənlərdə şəkilləri və digər nümunələri saxlaya və yenidən qura bilən assosiativ yaddaş yaradıb. Cefri Hinton məlumatlarda xassələri avtonom şəkildə tapa bilən bir üsul icad edib və beləliklə, şəkillərdəki xüsusi elementləri müəyyən etmək kimi vəzifələri yerinə yetirib",- deyə Komitənin açıqlamasında qeyd olunur.

"Laureatların işi artıq ən böyük fayda verib. Fizikada biz süni neyron şəbəkələrindən xüsusi xassələrə malik yeni materialların işlənib hazırlanması kimi geniş sahələrdə istifadə edirik", - Fizika üzrə Nobel Komitəsinin sədri Ellen Muns deyir.

Con Hopfild 1933-cü il iyulun 15-də Çikaqoda (ABŞ) anadan olub. 1982-ci ildən assosiativ sinir şəbəkələrini araşdırması ilə məşhurdur. Adını daşıyan Hopfild neyron şəbəkəsini inkişaf etdirməsi ilə tanınır. 1954-cü ildə Pensilvaniyadakı Svortmore Kollecində fizika ixtisası üzrə bakalavr, 1958-ci ildə Cornell Universitetində fizika üzrə doktorantura təhsili alıb. Onun doktorluq dissertasiyası "kvant mexaniki nəzəriyyəsi" adlanırdı. 1961-1964-cü illərdə Kaliforniya Berkli Universitetində (fizika), 1964-1980-ci illərdə Prinston Universitetində (fizika), 1980-1997-ci illərdə Kaliforniya Texnologiya İnstitutunda (kimya və biologiya) çalışıb, 1997-ci ildən isə yenidən Prinston Universitetində çalışır və biologiya üzrə fəxri professor elmi adını daşıyır.

Cefri Hinton 6 dekabr 1947-ci ildə Londonda (Böyük Britaniya) anadan olub. İngilis-kanadalı kompüter alimi , idrakçı alimdir. Ona "Süni intellektin Xaç atası" adını qazandıran sinir şəbəkələri sahəsindəki işləri ilə tanınan koqnitiv psixoloqdur.

1978-ci ildə Böyük Britaniyanın Edinburq Universitetindən PhD dərəcəsi alıb. Bristoldakı Clifton Kollecində və Kembricdəki Kral Kollecində təhsil alıb . Təbiət elmləri, incəsənət tarixi və fəlsəfə kimi müxtəlif fənlər üzrə dəfələrlə elmi dərəcə dəyişikliyindən sonra 1970-ci ildə eksperimental psixologiya üzrə bakalavr dərəcəsi üzrə məzun olub. Daha sonra təhsilini Edinburq Universitetində davam edib və 1978-ci ildə Christopher Longet-Higgins-in rəhbərliyi ilə apardığı araşdırmalara görə süni intellekt sahəsində fələfə doktorluq dərəcəsi alıb. Toronto Universitetinin fəxri professorudur.

### Kimya üzrə laureatlar

Oktyabrın 9-da İsveç Nobel Mükafatları Komitəsi tərəfindən 2024-cü ilin kimya üzrə Nobel laureatlarının adları elan olunub. Komitənin qərarı ilə kimya üzrə Nobel mükafatına "hesablamalı zülal dizaynına görə" Vaşinqton Universitetindən Devid Beyker, "zülal strukturunun proqnozlaşdırılmasına görə" britaniyalı alimlər Demis Hassabis və Con Camper layiq görülüblər. Mükafatın yarısı D.Beykerə veriləcək, digər hissəsi Demis Hassabis və Con Camper arasında bölüşdürüləcək.

Nobel komitəsinin məlumatında qeyd olunur ki, "2024-cü ilin kimya üzrə Nobel mükafatı zülallar, həyatın dahiyanə kimyəvi alətləri haqqındadır. David Baker tamamilə yeni növ zülallar yaratmaq kimi, demək olar ki, qeyri-mümkün bir cəsarətlə uğur qazanıb. Demis Hassabis və Con Camper 50 illik problemi həll etmək üçün zülalların mürəkkəb strukturlarının proqnozlaşdırılması üçün süni intellekt modeli hazırlayıblar. Bu kəşflər çox böyük potensiala malikdir".


Qeri Ruvkun


Viktor Ambros


Cefri Hinton


Con Hopfild


Demis Hassabis


David Baker


Con Camper


Han Kan



Nobel komitəsinin kimya bölməsinin sədri Hayner Linke rəsmi açıqlama zamanı qeyd edib ki, "Bu il tanınan kəşflərdən biri də möhtəşəm zülalların yaradılması, digəri isə 50 illik bir arzunun yerinə yetirilməsi ilə bağlıdır: protein strukturlarını onların amin turşusu ardıcıllığından proqnozlaşdırmaq. Bu kəşflərin hər ikisi geniş imkanlar açır".

Devid Beyker 6 oktyabr 1962-ci ildə Seatldə (ABŞ) anadan olub. 1984-cü ildə Harvard Universitetində bakalavr dərəcəsi alıb.1989-cu ildə Berkli Kaliforniya Universitetində biokimya üzrə doktorluq dissertasiyasını Rendi Şekmanın (Nobel laureatı) laboratoriyasında tamamlayıb və burada əsasən zülalların daşınması üzərində çalışıb. 1993-cü ildə San-Fransisko Universitetində biofizika üzrə postdoktorantura təhsilini tamamlayıb. 1993-cü ildən müəllim kimi Vaşinqton Universitetinin Tibb fakültəsinin biokimya şöbəsində fəaliyyətə başlayıb. 2000-ci ildə Hovard Hughes Tibb İnstitutunun tədqiqatçısı olub. 2009-cu ildə Amerika İncəsənət və Elmlər Akademiyasının üzvü seçilib.

Demis Hassabis 1976-cı ildə Londonun şimalında anadan olub. 4 yaşından şahmat sahəsində vunderkind qabiliyyəti göstərib. 13 yaşında 2300 reytinqi ilə usta normasına çatıb. İngiltərədə bir çox gənc şahmat komandalarının, eləcə də 1995- 1997-ci illərdə Kembric Universitetinin şahmat komandasının kapitanı olub. 1988-1990-cı illər arasında Şimali Londondakı kişi Gimnaziyasında, Kraliça Elizabet məktəbində oxuyub. Sonradan evdə təhsil alıb.

Şahmatdan aldığı qazancla kompüter alıb, ilk kompüterini - ZX Spectrum 48 yaradıb. Müstəqil olaraq kitablardan kodlaşdırmanı öyrənib. Londondakı Google DeepMind tədqiqat şirkətinin həmtəsisçisi və rəhbəridir.

İngilis süni intellekt tədqiqatçısı, nevroloq, kompüter oyunları ixtiraçısıdır. Böyük Britaniya Kral Mühəndislik Akademiyasının (2017), London Kral Cəmiyyətinin (2018) üzvüdür. Times jurnalı onu 100 ən nüfuzlu şəxs siyahısına daxil edib (2017). 2024-cü ildə süni intellekt sahəsində xidmətlərinə görə cəngavər statusu alıb.

Con Camper 1985-ci ildə Littl-Rok (ABŞ) inzibatı dairəsində anadan olub. Vanderbilt Universitetində fizika və riyaziyyat üzrə bakalavr dərəcəsi, Kembric Universitetində nəzəri fizika üzrə magistr, Çikaqo Universitetində zülalların inkişaf dinamikasını modelləşdirmək üçün maşın öyrənməsindən istifadə sahəsində PhD təhsili alıb. ABŞ-nin "DeepMind" texnologiya şirkətinin baş elmi işçisidir.

Con Camper və Demis Hassabis Alphafold 2 adlı süni intellekt modelini təqdim ediblər. Onun köməyi ilə tədqiqatçılar tərəfindən müəyyən edilən, demək olar ki, bütün 200 milyon zülalın quruluşunu təmin edə biliblər. 39 yaşındadır və ən gənc Nobel mükafatçılarından biridir.

### Ədəbiyyat üzrə laureat

Oktyabrın 10-da Nobel Mükafatları Komitəsi ədəbiyyat üzrə 2024-cü ilin Nobel mükafatı laureatının adını açıqlayıb. Komitənin qərarı ilə yüksək elmi mükafata Cənubi Koreyadan olan yazıçı 54 yaşlı Han Kan "tarixi travmalara qarşı çıxan və insan həyatının kövrəkliyini ortaya qoyan sıx poetik nəsrinə görə" layiq görülüb.

Han Kan 27 noyabr 1970-ci ildə Cənubi Koreyanın Qvanju şəhərində anadan olub. O , Yonsei Universitetində Koreya ədəbiyyatı üzrə təhsil alıb. 2013-cü ilin yayından Han Seul İncəsənət İnstitutunda yaradıcı yazıdan dərs deyir.

2016-cı ildə onun "Vegeterian" romanı Booker Beynəlxalq mükafatına layiq görülüb. Bu, onun ingilis dilinə tərcümə olunan ilk kitabıdır. "Mən əlvida demirəm" romanı 2023-cü ildə Fransanın Medici mükafatına layiq görülüb.

### Sülh üzrə laureat

Oktyabrın 11-də Norveçdə Sülh üzrə 2024-cü ilin Nobel laureatının adı açıqlanıb. Norveç Nobel Komitəsi 2024-cü il üçün Nobel Sülh mükafatının "nüvə silahlarından azad bir dünyaya nail olmaq səylərinə və nüvə silahlarının bir daha heç vaxt istifadə edilməməsinin şahid ifadələri ilə nümayiş etdirməsinə görə" Yaponiyanın Nihon Hidankyo təşkilatına verilməsi barədə qərar qəbul edib. Hibakuşa kimi tanınan Xirosima və Naqasakidən olan atom bombasından sağ qalanların bu kütləvi hərəkatı, nüvə silahlarından azad bir dünyaya nail olmaq səylərinə və nüvə silahlarından bir daha heç vaxt istifadə edilməməli olduğunu şahid ifadələri ilə nümayiş etdirdiyinə görə Sülh mükafatını alır.

Oktyabrın 14-də iqtisadiyyat elmləri üzrə Nobel mükafatı qaliblərinin adları elan olunacaq.

Qeyd edək ki, mükafatın təqdimat mərasimi dekabrın 10-da İsveçin və Norveçin paytaxtlarında Alfred Nobelin doğum günündə keçiriləcək.

**Oruc MUSTAFAYEV**

# "Yaxşı müəllimlər olmadan yaxşı alimlər yetişə bilməz"

**İsveçin paytaxtı Stokholm şəhərində 2017-ci ildən bəri hər il Nobel Mükafatı Müəllimlər Sammiti keçirilir. Budəfəki sammitdə dünyanın müxtəlif ölkələrindən olan müəllimlər Nobel Sülh mükafatı laureatları və aparıcı alimlərlə görüşərək təhsil sistemində vacib olan mövzuları müzakirə ediblər. Bu il Nobel Mükafatı Muzeyində keçirilən tədbirdə Azərbaycan da daxil olmaqla, otuzdan çox ölkədən müəllimlər iştirak ediblər. Tədbirdə ölkəmizi ADA Universitetinin İctimai və beynəlxalq münasibətlər fakültəsinin müəllimi, Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının üzvü, "Ədibin evi" Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyeva təmsil edib.**

**Ş.Mehrəliyeva AZƏRTAC-a müsahibəsində sammitdə müzakirə olunan mövzu haqqında danışıb.**



*- Nobel mükafatı, əlbəttə ki, dünyada çox tanınan təsisatdır. Nobel Mükafatı Müəllimlər Sammiti isə o qədər də yox. Bizə bu platforma barədə nə deyə bilərsiniz?*

- Doğru qeyd edirsiniz. Tanınmış Nobel qardaşlarından Alfred Nobelin vəsiyyəti əsasında yaradılan Nobel mükafatı 1901-ci ildən verilsə də, Nobel Mükafatı Müəllimlər Sammiti platforması cəmi yeddi il əvvəl yaradılıb. Burada səbəb çox sadə və məntiqlidir - yaxşı müəllimlər olmasa, elmə, öyrənməyə həvəs, yeni ixtiralara can atan alimlər də olmayacaq. Ona görə də Nobel Mükafatı Muzeyi hər il dünyanın müxtəlif ölkələrindən yüzlərlə müəllimləri və təhsil idarəçilərini bir araya gətirərək müasir tədrisdə həlli vacib məsələləri ünvanlayır. Xaricdən gələn müəllimlər üçün isə birgünlük sammitlə yanaşı, xüsusi birhəftəlik proqram qurulur. İştirakçılar məktəblərə gedərək dünyanın aparıcı yerlərini tutan İsveç təhsil sistemi ilə tanış olur, İsveç həmkarları ilə müzakirələr aparır, onların təcrübələrini mənimsəyirlər.



*- Azərbaycan bu sammitə nə zamandan qatılır?*

- Azərbaycan sammitdə artıq üçüncü dəfədir ki, iştirak edir. 2022-ci ildə ADA Universiteti burada İsveçin Bakıdakı səfirliyinin dəstəyi ilə iştirak etdi. Növbəti ildə nümayəndə heyəti Azərbaycan Dillər Universitetindəki Skandinaviya Mərkəzindəki həmkarlarımızdan ibarət idi. Bu il iştirak edən yenə də ADA Universitetidir. Qeyd etmək istəyirəm ki, burada maraq doğuran sadəcə iştirak yox, mövzu seçimidir. 2017-ci ildən bəri sammitin mərkəzində olan mövzulara baxsanız, onlar "posthəqiqət" adlandırdığımız dövrdə nəyin elm olduğu, nəyin olmadığını araşdıran sahələrə baxır. O cümlədən saxta xəbərlərlə dolu mühitdə faktlara əsaslanan məlumatların tapılması, iqlim dəyişikliyi, dayanıqlılıq, miqrasiya kimi mövzuların şagirdlər tərəfindən düzgün anlaşılması və s. Yəni bunlar hər bir müəllimin sıx əlaqədə olan dünyada gənclərə öyrətmək istədikləridir. Onları hansı ən son elmi araşdırmalar əsasında, sinif otağında hansı alətləri istifadə etməklə həyat keçirməliyik? Sammit bu kimi mövzuları diqqətdə saxlayır.

*- Builki sammitin maraqlı mövzusu var idi - "Beyini nəzərə alarkən". Müzakirələriniz nəyin ətrafında qurulurdu?*

- Sirr deyil ki, yeni texnologiyaların inkişafı neyroaraşdırmalar üçün kifayət qədər yeni imkanlar açmışdır. Bəlkə də, insan fiziologiyasına dair son onilliklər ən çox öyrəndiyimiz məhz insan beyninə aiddir. Müəllimlərin sinif otağında işlədiyi məhz bu orqandır və nəzərə alaq ki, bizim şagirdlər və tələbələr sinif otağına gələndə onların beyni hələ inkişaf etməkdə olan mərhələdədir, onu düzgün anlamaq və onunla işləmək bacarığı olduqca vacibdir.

Budəfəki sammit beyinlə öyrənmə təcrübəsi arasında əlaqələrə baxırdı. Müzakirələrimizin xülasəsini ifadə edə bilsəm, deyərdim ki, gənclərin emosiyaları ilə onların öyrənmə sürəti və təcrübəsi arasında bilavasitə əlaqə var. Bundan əlavə, yaradıcı qabiliyyət və ya tədrisə maraq anadangəlmə cəhətlər deyil. Onları sinif otağında düzgün alətlərlə təşviq etmək olar. Əlbəttə ki, Nobel Mükafatı Müəllimlər Sammitinin orijinal missiyasına qayıdaraq deyə bilərik ki, müəllimlər bu mühiti nə qədər çox təşviq etsə, bir o qədər elm inkişaf edəcək, yeni ixtiralar ortaya qoyan alimlərin sayı artacaq. Mənim müşahidələrimə görə, İsveç məktəblərində şagird və tələbələrin müstəqil araşdırmasına daha çox yer verilir. Bununla, onlar materialı tək əzbərləmirlər, həm də emal edirlər və daha yaxşı qavrayırlar. Yeri gəlmişkən, Bakıda həyata keçirdiyim digər bir vəzifə - "Ədibin Evi"nin direkotru olaraq Stokholm İqtisadiyyat Məktəbinin prezidenti Lars Stranneqardın çıxışı diqqətimi xüsusi cəlb etdi. O bildirirdi ki, sahəsi və ixtisasından asılı olmayaraq gənclərin tədris prosesinə bədii ədəbiyyatın qatılması konkret faydalar verir - onların azad düşüncə tərzi, sorğulama qabiliyyəti, empatiya və mədəni savadlılığını artırır və xoşbəxtlik hissinin çoxalmasına gətirib çıxarır.

*- İsveçə budəfəki akademik səfərinizdən gözləntiləriniz nədir?*

- Mən Skandinaviyanın ən qədim universiteti-Uppsala Universitetində akademik mübadilədə iştirak edirəm. Kommunikasiya və media müəllimi kimi məni maraqlandıran, bu sahənin tədrisində yeniliklər, proqramların qurulması, fənlərin tədris edilməsi kimi məsələlərdir. Amma kommunikasiyanın ölkənin hər bir sahəsinə şamil edildiyi və səmərəli olduğu təqdirdə hər şeyin keyfiyyətinin dəyişdiyini nəzərə alaraq, İsveçin ümumi məlumat məkanını və havasını izləmək mənim üçün olduqca maraqlıdır. Yəqin ki, tanınmış etnoqraf Tor Heyerdahlın vikinqlərin əcdadlarının Qobustan ərazisindən gəlməsi fərziyyəsini eşitmisiniz. Yerli həmkarlarımla zarafatla birbirimizi "uzaq qohum" adlandırsaq da, kökləri eyni olan bəşəriyyətin daha sonra kulturoloji fərqlərinin yaranma səbəbini araşdırmaq maraqlıdır. Bundan əlavə, Nobel irsi və Nobel mükafatının təsis olunmasında Azərbaycan irsi ilə bağlı müzakirələr aparmaq maraqlıdır. Bir çox isveçli bunu xoş təəccüblə qarşılayır. Bu, şəxsən mənə xatırladır ki, maarif prosesinin gətirdiyi dəyişikliklər həmişə müsbət və dayanıqlıdır.

# BilBacar müsabiqəsi başlayır

**Elm və Təhsil Nazirliyi, Təhsil İnstitutu və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə BilBacar müsabiqəsinə start verilir. Müsabiqədə respublikanın bütün ümumi təhsil müəssisələrinin VIII, IX və X sinif şagirdləri iştirak edə bilərlər. Müsabiqə çərçivəsində şagirdlərin səriştə əsaslı tapşırıqlarla işləmə vərdişlərinin təkmilləşdirilməsi və rəqəmsal platformada imtahan vermə bacarıqlarının formalaşdırılması, eyni zamanda xüsusi istedadlı şagirdlər və qabaqcıl məktəblərin müəyyən edilməsi nəzərdə tutulur.**




Müsabiqənin ilk mərhələsi virtual platforma üzərindən 2024-cü ilin oktyabr ayından 2025-ci ilin may ayınadək keçiriləcək. Bu mərhələ şagirdlərin təşkilati komanda tərəfindən hər ay əvvəlcədən elan olunan günlər ərzində, məktəb binasında koordinatorun müşaiyəti ilə "Yarış" bölməsindəki sualların cavablandırması ilə həyata keçiriləcək. İkinci mərhələnin isə 2025-ci ilin iyun ayında əyani formada keçirilməsi planlaşdırılır.

Bununla yanaşı, platformada ay ərzində aktiv olan "Hazırlıq" bölməsi şagirdlərin suallarla məşq edərək "Yarış"a hazırlığını təmin edəcək. Qeyd edək ki, bu bölməyə şagirdlər istənilən məkanda və müxtəlif zamanlarda kompüter, planşet və ya telefon vasitəsilə daxil ola biləcəklər.

Hər iki bölmə üzrə ("Hazırlıq" və "Yarış") ayrı-ayrılıqda şagirdlərə 60 sual (riyaziyyat - 20 sual, oxu — 20 sual, təbiət elmləri — 20 sual) təqdim ediləcək. Onlayn mərhələ üzrə şagirdlərə təqdim ediləcək suallar hər ay yenilənəcək.

Qeyd edək ki, BilBacar müsabiqəsinin keçirilməsində məqsəd VIII, IX və X sinif şagirdlərinin məktəbdə qazandıqları bilik və bacarıqlardan istifadə etmək qabiliyyətini inkişaf etdirmək və həmin bacarıqların real həyatda tətbiqinə sövq etməkdir.

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan nəşriyyatı" MMC, 9-cu mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 38630 **Sifariş** 2363
**Məsul növbətçi:** Ş.Cəfərov



# Etibarsız sayılır



**Bakı şəhər** 213 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Məmmədov Vüqar Kamil oğluna verilmiş B-217666 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2022-ci ildə Mirzəyev Rəşid Rüstəm oğluna verilmiş C-148282 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universieti** tərəfindən 2003-cü ildə Sadıqova Taliyə Səfər qızına verilmiş A-140355 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Yeni Mil qəsəbə tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Quliyeva Ulduz Hikmət qızına verilmiş B-647543 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Avropa Liseyini** 2022-ci ildə bitirmiş Həsənov İsa Əmir oğluna verilmiş E-470509 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Əlibəyqışlaq kənd tam orta məktəbini 2021-ci ildə bitirmiş Əsgərova Fidan Mikayıl qızına verilmiş E-424111 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Universiteti** tərəfindən 2020-ci ildə Ələkbərzadə Yasəmən Ələkbər qızına verilmiş C-058885 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 16 nömrəli tam orta məktəbin IX sinfini 2024-cü ildə bitirmiş Qələndərli Emil Elxan oğluna verilmiş C-996278 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Güvəkənd kənd tam orta məktəbin IX sinfini 1987-ci ildə bitirmiş Mirzalıyeva Almaz Mahmud qızına verilmiş 154335 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 67 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş İbrahim (Əlişli) Əkrəm Əkbər oğluna verilmiş A-389509 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**S.Rüstəm adına xarici dillər təmayüllü gimnaziyanı** 2012-ci ildə bitirmiş Əsədullayev Əliəkbər Natiq oğluna verilmiş A-119948 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 16 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Şahvələdov Nurlan Nuru oğluna verilmiş A-462720 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 5 nömrəli tam orta məktəbin IX sinfini 1981-ci ildə bitirmiş Hüseynov Ramiz Səttar oğluna verilmiş A-270732 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Musiqi Texnikumu** tərəfindən 1993-cü ildə Vəliyeva Aygün Rafiq qızına verilmiş AB-II-015412 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Xatınlı kənd tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Aslanova Şəhla Asim qızına verilmiş VB-010513 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 15 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Hacıyev Muraz İlham oğluna verilmiş E-604415 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 39 nömrəli tam orta məktəbin IX sinfini 2021-ci ildə bitirmiş İsayeva Nübar Ramil qızına verilmiş C-513572 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 2 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Salmanov Hüseyn Elnur oğluna verilmiş E-603473 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 29 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Nəsirli Kəmalə Akif qızına verilmiş A-052835 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 149 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Ağayev Sarvan Nizami oğluna verilmiş B-496591 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 5 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Həsənquluzadə Aysel Taleh qızına verilmiş E-733821 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 9 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Əmirova Röya Umud qızına verilmiş A-043007 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 279 nömrəli tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Musayeva Nuridə Telman qızına verilmiş B-161216 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbin VIII sinfini 1989-cu ildə bitirmiş Kuliyeva Mehriban Əşrəf qızına verilmiş 534657 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**10 nömrəli Bakı Peşə Liseyini** 2005-ci ildə bitirmiş Sahibova İntizar Kamal qızına verilmiş BB-006645 nömrəli attestat və diplom itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Qaraçay kənd tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Məmmədova Fidan Yusif qızına verilmiş C-207001 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab şəhər** 3 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Abbasova (Mirzəzadə) Nərmin Rahim qızına verilmiş B-521265 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Qarakazımlı kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Əliyeva İlahə Nazim qızına verilmiş B-460825 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzini** 2018-ci ildə bitirmiş Hümbətov Fail Yusif oğluna verilmiş A-107917 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 1 nömrəli tam orta məktəbi 1974-cü ildə bitirmiş Kazımov Tahir Yusif oğluna verilmiş B-711002 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 9 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Hüseynov Rəşad Əli oğluna verilmiş E-327949 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Nehrəm kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Zeynalov Əfsəl Xəlil oğluna verilmiş A-272261 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 14 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Babayev Elşən İxtiyar oğluna verilmiş B-732916 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Özəl Türk Liseyini** 1999-cu ildə bitirmiş Mirhəsənov Ramil Yarməmməd oğluna verilmiş A-313957 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Pirili kənd tam orta məktəbini 2003-cü ildə bitirmiş Məlikov Hafiz Əlsəftər oğluna verilmiş A-715964 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 246 nömrəli məktəb-liseyi 2000-ci ildə bitirmiş Əfəndiyeva Naimə Yunus qızına verilmiş A-334717 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 37 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Bədəlova Zülfiyyə Dilqəm qızına verilmiş B-529762 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 149 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Şabanova Vəfa Kamil qızına verilmiş B-672941 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Müəllimlər İnstitutu** tərəfindən 2017-ci ildə Novruzova (Rüstəmova) Nigar Ziyafət qızına verilmiş A-117783 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Nərimanabad kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Məsimov Valeh Kərəm oğluna verilmiş B-742209 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 72 nömrəli məktəb-liseyi 2024-cü ildə bitirmiş Rəhimli Fateh Arif oğluna verilmiş E-556468 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Mərdəliyev Aydın Rafael oğluna verilmiş ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 3 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Məmmədova (Soltanova) Elnurə Allahverdi qızına verilmiş A-163631 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 33 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Cəfərov Mir-Sənan Samir oğluna verilmiş E-414428 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Mühəndislik Universiteti** tərəfindən 2020-ci ildə Əsədzadə Şahəddin Seymur oğluna verilmiş C-078543 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 16 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Seyfiyev Vüqar Əlipənah oğluna verilmiş A-066182 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 16 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Quliyev Rasim Qəhrəman oğluna verilmiş A-137247 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 4 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Mikayılova (Abbasova) Sevinc Rəhim qızına verilmiş B-279595 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 7 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Hüseynova Ülviyyə Vahid qızına verilmiş 661135 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 240 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Fətullayeva Rəna İsgəndər qızına verilmiş A-068156 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Sosial Pedaqoji Kolleci** tərəfindən 2010-cu ildə Bəşirova Sevinc Qalib qızına verilmiş BB-II-117496 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 38 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Bayramov Nicat Fərman oğluna verilmiş A-717119 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 11 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Məmmədli Leyla Şahin qızına verilmiş E-606619 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 14 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Əliyev İlham Nuru oğluna verilmiş E-290785 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 7 nömrəli tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Məmmədov Ayxan Vüsal oğluna verilmiş C-812148 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Şuvi kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Qüdrətov Cavanşir Əli oğluna verilmiş A-160708 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2005-ci ildə Əzizov Fərhad Əziz oğluna verilmiş B-024970 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 57 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Məmmədova Nəzrin Fikrət qızına verilmiş E-456665 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Ocaqlı kənd 1 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Allahverdiyev Müslüm Cəbrayıl oğluna verilmiş 236611 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 27 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Axundov Mirzə Elşən oğluna verilmiş A-305907 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci** tərəfindən 2018-ci ildə Rəşidova Jalə Xeyrulla qızına verilmiş AA-106004 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Çinarlı qəsəbə tam orta məktəbi 2006-cı ildə bitirmiş Əliyeva Gülnar Söhrab qızına verilmiş 325225 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2021-ci ildə Şirinov Tural Məhəmməd oğluna verilmiş C-101354 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Kosalar kənd İ.Şıxlı adına tam orta məktəbi 2000-ci ildə bitirmiş Nəbiyev Aqil Həzrətqulu oğluna verilmiş A-410585 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Füzuli qəsəbə tam orta məktəbin VIII sinfini (keçmiş Sovxoz orta məktəb) 1990-cı ildə bitirmiş Cəfərov Zahid Heydər oğluna verilmiş 698718 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Uzuntəpə kənd 1 nömrəli tam orta məktəbini 2016-cı ildə bitirmiş Əliyev Sinan Rahman oğluna verilmiş A-535181 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.